

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 4 (24.490)

31 yanvar 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Sülhün, inkişafın və həmrəyliyin İlham Əliyev Zirvəsindən gələcəyə baxış



**Prezident İlham ƏLİYEV:**

*“Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu bizim böyük sərvətimizdir.”*

Müstəqil Azərbaycanın son iyirmi iki illik dövrünə nəzər saldıqda siyasi fəaliyyətini güc balansı, milli maraqlar və real siyasət üzərində qurmuş, “Bizim daxili işlərimizə heç kim qarışa bilməz!” tezisi ilə siyasi fəlsəfəsini dünyaya bəyan etməklə qloballaşan dünyada Azərbaycanın müstəqil qərarvermə hüququnu ön plana çəkən, Qarabağı azadlığına qovuşduraraq siyasi iradəsini nəticəyə çevirməklə liderlik keyfiyyətlərini dünyaya sübut edən, xarici siyasətdə balanslı və çevik diplomatiya yürüdərək çoxvektorlu siyasətlə dövlətini regionda etibarlı tərəfdaşa çevirməklə güc, praqmatizm və milli maraqların üzərində yüksələn İlham Əliyev Zirvəsini görürük.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün və siyasi nüfuzunun dayanıqlılığının təmin edilməsi keçirilən beynəlxalq zirvə görüşləri ilə təkrar-təkrar tarixə yazılır. Dünyada baş verən iqtisadi, siyasi, hərbi və sosial tendensiyalar fonunda sülhə, dayanıqlı inkişafa, qlobal və regional birliyə töhfə verən yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycanın regionda sülhün, sabitliyin davamlılığını təmin etmək əzmini nümayiş etdirir və eyni zamanda əməkdaşlıq və dialoq üçün açıq platforma yaradılmasına imkan verir. Keçirilən beynəlxalq zirvə və forumların siyasi ideoloqu Ali Baş Komandan İlham Əliyevin nitqlərində Heydər Əliyev siyasi xəttinə, şəhidlərimizə, milli birliyimizə dərin ehtiram, eləcə də qlobal sülhə, regional əməkdaşlığa və iqtisadi inkişafa verdiyi önəm əsas məqamlar kimi diqqəti cəlb edir.

4 iyul 2025-ci ildə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu mötəbər tədbirin Xankəndi şəhərində keçirilməsi böyük siyasi, iqtisadi və mənəvi əhəmiyyət daşımaqla bərabər, həm də Azərbaycanın regionda sülhün, sabitliyin və bərpa proseslərinin davamlılığını təmin etmək əzmini nümayiş etdirdi. Görüş həm də qlobal çağırışların artdığı, regional həmrəylik, qarşılıqlı dəstək və ortaq inkişaf strategiyalarının hər zamankından daha böyük önəm kəsb etdiyi bir dövrdə əməkdaşlıq və dialoq üçün açıq platforma yaratdı.

Səhifə ⇨ 2

# Müasir çağırışlarla birgə addımlayan milli ruhlu Azərbaycan gəncliyi



*Azərbaycanda milli maraqlara xidmət edən, ölkəmizi inamlı, etibarlı sabahlara daşıya biləcək geniş dünyagörüşünə, intellektual təfəkkürə malik təhsilli, vətənpərvər XXI əsr gəncliyi modeli formalaşıb. O gənclik ki təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi strateji düşüncəyə, mütərəqqi ideyaya əsaslanan dərin konseptual xarakterli praqmatik dövlət gənclər siyasəti nəticəsində inkişaf edib, yetişib. Ulu Öndərin “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü,gələcəyi haqqında düşünməlidir” ideyası ötən dövrdə gənclərimizin həyat tərzinə, fəaliyyət prinsipinə çevrilərək, ümumilikdə, ölkəmizi böyük qələbələrə aparıb. Dahi şəxsiyyətin 1997-ci ildə imzaladığı müvafiq Fərmana əsasən fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilib ki, bu tarixi qərar yetişən və yetişməkdə olan nəslin gələcəyə baxışında hərəkətverici stimula çevrilib.*

Səhifə ⇨ 3

# Sülhün, inkişafın və həmrəyliyin İlham Əliyev Zirvəsindən gələcəyə baxış



(əvvəli 1-ci səhifədə)

Ölkə başçısı həmin tədbirdəki nitqində ECO məkanında ilk dəfə Bakıda COP 29 konfransının, Azərbaycanın təşəbbüsü ilə ilk dəfə ECO Həftəsinin keçirilməsi (Zirvə ilə paralel olaraq ECO Biznes Forumu, ECO Qadınlar və Gənclər forumları və əməkdaşlıq görüşləri keçirilmişdir), ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlaması, 2026-cı ildə Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsinə diqqət çəkərək Azərbaycanın siyasi, iqtisadi, sosial sahələrdəki rolunu və mövqeyini aydın şəkildə diqqətə çatdırmışdır.

Azərbaycan işğaldan azad etdiyi ərazilərində yüksək səviyyəli beynəlxalq tədbirlər təşkil edərək regionun bərpası və yenidənqurulması mesajını dünyaya çatdırır. Regionda sülhün, enerji təhlükəsizliyinin, iqtisadi-siyasi sabitliyin, dürüst qonşuluq münasibətlərinin qarantı olan Azərbaycan uzaqgörən və dahi lider rəhbərliyində siyasi xətt izləyir. Zirvə görüşündə üzv dövlətlər arasında regional iqtisadi əməkdaşlığın gücləndirilməsi, ticarət, investisiya və nəqliyyat əlaqələrinin genişləndirilməsi, enerji təhlükəsizliyi və bərpaolunan enerji sahəsində əməkdaşlıq, iqlim dəyişikliyi və dayanıqlı inkişaf məsələləri, rəqəmsal iqtisadiyyat və innovasiyaların təşviqi əsas müzakirə mövzuları olmuşdur.

## Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvəsi

7 oktyabr 2025-ci ildə Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə Görüşündə Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin dövlət və hökumət başçıları, həmçinin yüksək səviyyəli nümayəndə heyətləri iştirak etmişdir. Zirvə görüşünün əsas məqsədi türk dövlətləri arasında siyasi dialoqun gücləndirilməsi, iqtisadi, nəqliyyat, enerji, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, eləcə də təşkilat çərçivəsində ortaq strateji prioritetlərin müəyyənləşdirilməsi olmuşdur.

***"Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz. Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi"***, – deyərək çıxışında görüşün Qəbələdə keçirilməsinin mahiyyətinə toxunan dövlət başçımız tariximizə, regionumuzun hər bir qarışındakı qədim türk izinə, dövlətçilik ənənələrimizin tarixiliyinə işarə etmişdir. TDT-ni qlobal arenadakı vacib aktora çevirən faktorlara diqqət çəkən ölkə rəhbəri Naxçıvan sazişində sülhün qorunması və təhlükəsizliyin əsas məqsəd və vəzifələr sırasında yer aldığını və görüşün "Regional sülh və təhlükəsizlik" mövzusunu vurğulamışdır. Hərbi gücün vacibliyini qeyd edən Prezident İlham Əliyev 2026-cı ildə Azərbaycanda TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etmişdir. Təlimlərin Azərbaycanda keçirilməsi hərbi, geosiyasi və strateji baxımdan mühüm mesaj hesab oluna bilər. Vaşinqton Zirvəsində Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması, yeni geosiyasi reallıqlar fonunda ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması, Zəngəzur dəhlizinin açılmasının vacibliyinə diqqətçəkən Müzəffər Ali Baş Komandan şəhidlərimizə ehtiramını ifadə etmişdir. 2026-cı ildə Birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin TDT çərçivəsində geniş şəkildə qeyd olunması təklifi ilə çıxış edən dövlət başçısı ortaq dəyərimiz olan dilimizin saflığının qorunmasının vacibliyinə diqqəti yönəldə bilmişdir.

Zirvədə türk dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişafı, nəqliyyat və logistika dəhlizlərinin genişləndirilməsi, rəqəmsallaşma və innovasiya sahəsində əməkdaşlıq, mədəni və humanitar bağların möhkəmləndirilməsi, regional və qlobal təhlükəsizlik məsələləri üzrə koordinasiyanın həyata keçirilməsi kimi istiqamətlərdə müzakirələr aparılmışdır. Qəbələ Zirvə görüşü Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun artmasına, üzv dövlətlər arasında birlik, həmrəylik və strateji tərəfdaşlığın daha da güclənməsinə, ortaq tarix, dil və mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi ideologiyasına mühüm töhfə vermişdir.

### *"Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu*

İnkişaf etməkdə olan Səkkiz Ölkə Təşkilatına (D-8) üzv dövlətlər arasında media və informasiya sahəsində əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin təşviqi və ortaq kommunikasiya yanaşmalarının formalaşdırılması məqsədilə 21 noyabr 2025-ci il tarixdə Bakı şəhərində Media Forum keçirilmişdir. D-8 üzvü ölkələrin media qurumlarının rəhbərləri, jurnalistlər, kommunikasiya üzrə məsul dövlət nümayəndələri, sahə ekspertlərinin iştirakı ilə keçirilən forum çərçivəsində informasiya təhlükəsizliyi, sosial medianın təsiri, süni intellektin media fəaliyyətində rolu və regional əməkdaşlıq mexanizmləri müzakirə olunmuşdur.

Forumun ilk dəfə Bakıda keçirilməsini mühüm hadisə kimi qiymətləndirən Prezident İlham Əliyev demişdir: ***"...Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi. 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir. Azərbaycan enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.***

***Azərbaycan D-8 ailəsinin üzvü olduğu gündən təsisatın inkişafı ilə bağlı səylər göstərir. Bu, təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü büruzə verir..."***

Azərbaycanın D-8 təşkilatındakı iqtisadi, siyasi rolunu vurğulayan ölkə başçısı enerji, nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlıq etməklə regional və beynəlxalq arenada ölkəmizin aparıcı aktorlarından birinə çevrildiyini qeyd etmişdir. Cənab Prezident çıxışında müasir dövrümüzdə mediada baş verən sürətli texnoloji transformasiya fonunda dezinformasiya amilinin yaratdığı təhdidlər və media etikasının həmrəylik və birlik üçün vacibliyinə diqqət çəkmişdir.

### *Beynəlxalq platformalarda Azərbaycanın strateji qazancı*

Üç beynəlxalq tədbirin timsalında son illərdə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlər ölkəmizin artan siyasi çəkisini, Prezident İlham Əliyevin nüfuzunu və Azərbaycanın diplomatik fəallığını aydın şəkildə nümayiş etdirir. Keçirilən hər bir beynəlxalq tədbir regionda sülhə, sabitliyə, strateji məqsədlərə xidmət edir, növbəti beynəlxalq diplomatik manevrlərin hesablanması üçün mühüm əhəmiyyət daşıyır. Beynəlxalq platformalar Azərbaycanın regionda sülh, siyasi sabitlik, regional və qlobal əməkdaşlığa töhfə, nəqliyyat dəhlizlərinin genişləndirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi, ekoloji problemlər və iqlim dəyişikliklərinə diqqət çəkilməsi baxımından proseslərin davamlılığını təmin etmək əzmini nümayiş etdirir. Əməkdaşlıq və qarşılıqlı dialoq üçün açıq platformanın yaradılması Azərbaycanın siyasi etikaya, müzakirə mədəniyyətinə və mədəniyyətlərarası ünsiyyətə hörmətlə yanaşmasının bariz nümunəsidir.

ECO 17-ci Zirvə Görüşü Azərbaycanın nəqliyyat və logistika rolunu ön plana çıxardaraq enerji təhlükəsizliyi və yaşıl enerji sahəsində strateji tərəfdaş statusunu gücləndirdi, Qarabağ və Şərqi Zəngəzurda formalaşan yeni iqtisadi reallıqları beynəlxalq ictimaiyyətə nümayiş etdirdi.

TDT-nin Qəbələ Zirvəsi Azərbaycanın Türk dünyasında aparıcı siyasi mərkəzlərdən biri kimi rolunu daha da gücləndirdi, türk dövlətləri arasında siyasi həmrəyliyi və koordinasiyanı artırdı, Orta Dəhliz və digər nəqliyyat layihələrində Azərbaycanın əsas tranzit ölkə statusunu möhkəmləndirdi. Qəbələ Zirvəsi göstərdi ki, Azərbaycan təkcə coğrafi deyil, həm də ideoloji və siyasi baxımdan Türk dünyasının birləşdirici mərkəzidir.

D-8 Media Forumu Azərbaycanın media diplomatiyasının yeni mərhələyə keçdiyini göstərdi, Qarabağ reallıqlarının D-8 ölkələrinin media resurslarında daha düzgün təqdim olunmasına imkan verdi.

Ümumilikdə, beynəlxalq platformalar Azərbaycanın regional inteqrasiya proseslərində təşəbbüskar və etibarlı aktor olduğunu təsdiqlədi. Sübut olundu ki, Azərbaycan təkcə regional deyil, həm də çoxtərəfli beynəlxalq platformalarda təsir gücünə malikdir, siyasi, iqtisadi və informasiya sahələrində sistemli diplomatiya ilə çıxış edir, post-münaqişə dövründə sabitlik, əməkdaşlıq və inkişaf modeli təklif edir.

Bütün bunların memarı isə milli maraqlara söykənən dərin və uzaqgörən diplomatiyası, siyasi iradəsi, çevik qərarvermə və risk idarəçiliyindəki ustalığı ilə Azərbaycanın regional və qlobal hadisələrdə yalnız iştirakçı deyil, həm də təşəbbüskar və regional proseslərə istiqamət verən dövlət olduğunu sübut edən Heydər Əliyev siyasətinin davamçısı, Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevdir!

**Aidə CƏLİLZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru***



# Müasir çağırışlarla birgə addımlayan milli ruhlu Azərbaycan gəncliyi




## Təhsillidir, biliklidir, intellektualdır Azərbaycan gənci

(əvvəli 1-ci səhifədə)

Azərbaycanda gəncliyin inkişaf konsepsiyası Ümummilli Liderimiz Heydər Əliyevin ***"Təhsil millətin gələcəyidir"*** ideyasından güc alır. Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən bəri uğurla həyata keçirilən dövlət gənclər siyasəti bu ideyanın tam şəkildə reallaşdırılmasına, gənclərin yeni dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına güclü təkan verib. Gənclər Fondunun yaradılması, gənclərin bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, gənclər üçün Prezident mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenalarda təmsilçiliyinin yüksəldilməsi, respublikanın əksər rayon və şəhərlərində gənclər mərkəzlərinin, gənclər evlərinin tikilməsi, dövlət idarəçiliyində gənc kadr potensialının gücləndirilməsi məqsədilə "Yüksəliş" proqramının icrası gənclər siyasətinin səmərəliliyini daha da artıran olduqca mütərəqqi addımlardır. Bu gün xaricdə diaspor təşkilatlarında, konsulluqlarda, səfirliklərdə, dövlət idarəçiliyində, təhsil, səhiyyə, mədəniyyət, ümumiyyətlə, bütün sahələrdə gənclik həvəsi, gənclərin səsi duyulur. Bu baxımdan, 2005-ci ildən etibarən 2005-2009, 2011-2015 və 2017-2021-ci illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət proqramlarının icrasına diqqəti çəkmək olar. Proqramlardan irəli gələn vəzifələrə uyğun dövlətin gənclərlə bağlı siyasətində əsas xətt məhz təhsil üzərindən inkişaf etdirilir, yəni məqsəd dünyada gedən qlobal yeniliklərlə, dövri proseslərlə ayaqlaşmağı bacaran, startaplar yaradan, süni intellekt texnologiyalarından düzgün istifadə edə bilən savadlı, intellektual nəsil yetişdirməkdir. Prezident İlham Əliyev bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə artıq savadlı, intellektual gəncliyin formalaşdığını vurğuladı, gənclərin dövlət idarəçiliyində qabağa çəkilməsinin vacibliyini diqqətə çatdırdı: ***"Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir".***

Ölkəmizin bütün bölgələrində mərkəzdən tutmuş ta ki dağ kəndlərinədək müasir təhsil infrastrukturunun qurulması, məktəblərin ən yeni tədris avadanlıqları ilə təchizi, yeni təlim metodlarının tətbiqi də məhz savadlı gəncliyin yetişməsinə xidmət edir. Hər il ölkəmizin ali təhsil ocaqları üzrə yüksələn qəbul göstəriciləri də aparılan uğurlu siyasətin bəhrəsidir. Son illərin statistik nəticələri də gənclərin təhsilinə diqqətin artdığını göstərir. Belə ki, 2025-2026-cı tədris ilində bakalavriat səviyyəsinə 60 min 860, magistratura səviyyəsinə 14 min 335 nəfər qəbul olunub. Müqayisə üçün bildirək ki, 2024-2025-ci tədris ilində bakalavriat səviyyəsinə 59 min 26 nəfər, magistratura səviyyəsinə 14 min 104 nəfər, 2023-2024-cü tədris ilində isə bakalavriat pilləsinə 54 min 275, magistratura pilləsinə 13 min 567 nəfər qəbul edilmişdi. Cəmi iki-üç tədris ilində müşahidə olunan bu artım görülən işlərin hədər getmədiyini təsdiqləyir. Digər prioritet hədəf isə xarici ölkələrin tanınmış ali təhsil ocaqlarında təhsilin təşviqidir ki, bu istiqamətdə də ötən illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət proqramları uğurla icra edilib. Prezident İlham Əliyevin 2024-cü il 12 avqust tarixli Sərəncamı ilə həmin proqramın müddəti 2028-ci ilədək uzadılıb və qəbul üzrə kvota sayı 500 nəfər müəyyən olunub. 2025-ci ildən başlayaraq kvotanın 25 faizindən çox olmayan hissəsi bakalavriat pilləsini və 20 faizindən çox olmayan hissəsi doktorantura pilləsini əhatə edir. 2025-2026-cı tədris ili üzrə Dövlət Proqramı çərçivəsində 125 bakalavriat, 356 magistratura və 19 doktorantura səviyyəsində olmaqla, ümumilikdə, 500 nəfər təhsil almaq hüququ qazanıb. Proqram iştirakçısı seçilən 500 nəfərdən 160-ı "Universitetlər üzrə top 10"da yer alan ali təhsil müəssisələrində təhsil alacaqlar. Bunlar sırasında Stanford Universiteti, Massaçusets Texnologiya İnstitutu, Sinqapur Milli Universiteti, Oksford Universiteti, Berkli Kaliforniya Universiteti, ETH Sürix, Harvard Universiteti, Yel Universiteti kimi nüfuzlu ali təhsil müəssisələri vardır.

Bu gün ölkə siyasətində başlıca prioritetlərdən biri də məhz işğaldan azad olunmuş ərazilərdə müasir təhsil infrastrukturunun qurulması və Qarabağda savadlı, intellektual gənclik bazasının formalaşdırılmasıdır. Böyük Qayıdışa dair I Dövlət Proqramının uğurlu icrası nəticəsində 2025-ci ildə işğaldan azad edilmiş ərazilərdə 14 ümumi, 6 məktəbəqədər təhsil müəssisəsi fəaliyyətə başlayıb. Ümumilikdə, ötən müddətdə 21 ümumi, 14 məktəbəqədər təhsil müəssisəsi tikilib. Fəaliyyət göstərən 20 ümumi təhsil müəssisəsində 3902 şagird təhsil alır və 370 təhsilverən, 131 texniki işçi çalışır. İşğaldan azad edilmiş bölgələrə təhsilin qayıdışı istiqamətində atılan ən önəmli addım isə, heç şübhəsiz, Qarabağ universitetinin yaradılmasıdır. Hazırda Universitetdə 1024 tələbə birinci, 1068 tələbə ikinci, 60 SABAH qrupu tələbəsi isə üçüncü tədris ilində olmaqla, ümumilikdə, 7 fakültə üzrə 2152 tələbə təhsil alır. Ötən il Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikası binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışı oldu ki, bu da bölgədə tibbi kadrların hazırlanmasına mühüm töhfə kimi qiymətləndirilir. Cari tədris ilindən artıq Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayıb. Bütün bu proseslər bölgədə mövcud tarixi təhsil ənənələrinin bərpasına xidmət edir.

## Fiziki cəhətdən güclüdür, əzmlidir gəncliyimiz

Dövlət gənclər siyasətində ikinci prioritet istiqamət isə həm mənəvi, həm də fiziki cəhətdən sağlam nəslin yetişdirilməsi, formalaşdırılmasıdır. Bu xüsusda həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda ölkəmizin ayrı-ayrı bölgələrində, ümumilikdə, 46 Olimpiya İdman Kompleksi, o cümlədən müxtəlif bölgələrdə, Bakıda, Qarabağda, Naxçıvanda, Gəncədə ən müasir idman infrastrukturu quruları gənclərin istifadəsinə verilib. Azərbaycanın Avropa Oyunlarını, İslam Həmrəyliyi Oyunlarını, ötən il III MDB Oyunlarını yüksək səviyyədə təşkil etməsi gənclər idman siyasətinin uğur göstəriciləridir. Təqdirəlayiq haldır ki, idmançılarımız yaradılan şəraitdən düzgün istifadə edərək beynəlxalq arenalarda ölkə idmanının şərəfini layiqincə qoruyur, üçrəngli bayrağımızı zirvələrə qaldırır, Dövlət Himnimizi səsləndirirlər. Bu baxımdan, 2025-ci il də Azərbaycan idmanı üçün uğurlu olub, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edib, 2000-dən çox medal, o cümlədən, təqribən, 600-dən çox qızıl medal qazanılıb. Vurğulamaq yerinə düşər ki, ötən il qazanılan medal sayı rekorddur.

Azərbaycanda gənclərlə bağlı bütün işlərin, o cümlədən də idman sahəsində həyata keçirilən tədbirlərin təməlində bir prinsip dayanır ki, gəncliyimiz milli maraqlara uyğun mənəvi cəhətdən güclü, vətənpərvər ruhlu böyüsün. Çünki fiziki cəhətdən gümrah, mənən sağlam, əqidə cəhətdən düzgün formalaşan gənclər ölkənin inamlı, etibarlı sabahlarıdır. Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı da bu məsələyə xüsusi diqqəti çəkdi, gənclərin Vətən sevgisi ilə böyümələrinin, vətənpərvərlik ruhunda tərbiyə almalarının dövlət siyasətinin vacib istiqamətlərindən biri olduğunu vurğuladı: ***"Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var".***

## Vətəni bütövləşdirən qalib əsgərdir Azərbaycan gənci

Fiziki, intellektual cəhətdən sağlam yetişən gəncliyin, təbii ki, vətənpərvərlik tərbiyəsi, milli ruhu da yüksək olur. Bu baxımdan, ölkəmizdə illərdir, həyata keçirilən dövlət gənclər siyasətinin ən böyük bəhrəsini, nümunəsini, milli ruhun təntənəsini 2020-ci ilin 44 günündə gördük, yaşadıq. Vətən sevdalı Azərbaycan gəncləri sentyabrın 27-dən noyabrın 10-dək bircə gün də geriyə addım atmadan yalnız irəli addımladılar. Füzulidə istehkamları yarıb, sədləri keçərək müqəddəs şəhərimiz Şuşada missiyalarını şərəflə tamamladılar, müasir hərb tariximizin zəfər salnaməsini yazdılar. Ölkə başçısı da çıxışlarında aparılan dövlət gənclər siyasətinin, təlim-tərbiyə prosesinin müharibənin taleyində böyük rol oynadığını vurğuladı: ***"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".***

Bəli, Ulu Öndər siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi dövründə formalaşan, düzgün təlim-tərbiyə alan gənclər heç zaman unudulmayacaq tarix yazdılar. Xalqımızın yaddaşına əbədi həkk olunan qızıl tarix... Müasir Azərbaycan gəncliyi 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmrinə müntəzir doğma ata-baba torpaqlarını qaytarmaq üçün irəli atılan oğulların nərəsində, keçilməz sədləri keçən, yarılmaz cəbhələri yaran iradədə, düşməni lərzəyə salan "dəmir yumruq"dadır. Təkbaşına onlarla ermənini məhv edən Mübarizin cəsarətində, dumanlı dağların başında dayanan Xudayarın döyüş yoldaşlarını irəli səsləyən Vətən həsrəti səsində, tək əliylə düşmənin canını boğazından çıxaran Cəbrayılın intiqamlı baxışlarında, yüzlərlə igidimizin 44 gündə al qanları ilə yazdıqları qəhrəmanlıq dastanındadır. 23 saata qondarma rejimin belini qıran qətiyyətdə, şücaətdə, mülki şəxs canından olmasın deyə göstərilən nəzakətdə, insanlıqda, vicdanda, ləyaqətdədir Azərbaycan gəncliyi. Beynəlxalq yarışlarda ölkəmizin bayrağını dalğalandıran, himnimizi səsləndirən Hidayət, Zelim kimi, eləcə də bütün haqsızlıqlara rəğmən ən titullu komandaları məğlubiyyətə düçar edən "Qarabağ" futbol klubunun şərəfini qoruyan gənclərin mübarizə əzmində, əyilməz qəddində, kimsəsizə kimsə olmağı, mənəvi dəyərləri qorumağı, təbiətə qayğı ilə yanaşmağı aşılayan könüllülük hərəkatında, olimpiada qalibi olmaq, ali məktəb tələbəsi adını qazanmaq həvəsində, köklü təhsil ənənələrini yaşadan, dirçəldən Xankəndidəki Qarabağ Universitetindədir. Səndədir, məndədir, hər birimizdədir gənclik istəyi, gənclik ruhu, gənclik duyğusu. Hər zaman irəlidə olmaq diləyi ilə gününüz mübarək, qalib Azərbaycanın qalib gəncləri...

**✍ Nail ƏSGƏROV**

# Səlahiyyətli nümayəndə Sədərək rayon ictimaiyyətinin ağsaqqalları ilə görüşüb





Yanvarın 28-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Sədərək rayon ictimaiyyətinin ziyalıları və ağsaqqalları ilə görüş keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Sədərək rayonunda ucaldılmış abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri qoyulub.

Sədərək Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən görüşdə səlahiyyətli nümayəndə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sədərək rayonuna daim xüsusi qayğı göstərdiyini diqqətə çatdırıb.

Sədərək rayonunun qəhrəmanlıq tarixinə malik bir diyar olduğu vurğulanıb. “Vətən sərhəddən başlayır” prinsipinin məhz Sədərək rayonunun tarixi və qəhrəmanlıq salnaməsində öz real təcəssümünü tapdığı xüsusi olaraq qeyd edilib. 1990-cı illərdə rayon sakinlərinin böyük fədakarlıqlar göstərərək şəhidlər verməsi, düşmənə qarşı mübarizə apararaq mərdliklə dayanması xatırlanıb.

Görüşdə rayon ictimaiyyətini maraqlandıran məsələlər, Sədərək rayonunun sosial-iqtisadi inkişaf perspektivləri və onların həlli istiqamətində bir sıra məsələlər müzakirə olunub. Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş müvafiq Dövlət Proqramı çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kəndlərinin su təchizatı və kanalizasiya sistemlərinin qurulması məqsədilə



ümumi dəyəri 7,6 milyon manat podrat müqaviləsinin bağlandığı və işlərin yaxın vaxtlarda başlanacağı, eləcə də dövlət başçısının tapşırıqlarına uyğun olaraq rayonun suvarma infrastrukturunun yenidən qurulması məqsədilə ötən ay ərzində təkliflərin hazırlandığı və “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış komissiyada baxıldığı, rayonun əsas təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fəaliyyətinin daim diqqətdə olduğuna dair məlumatlar səlahiyyətli nümayəndə tərəfindən rayon ictimaiyyətinin ziyalıları və ağsaqqallarının diqqətinə çatdırılmışdır.



# Səlahiyyətli nümayəndə Sədərək rayonunda vətəndaşları qəbul edib

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Sədərək rayonunda vətəndaşları qəbul edib.

Sədərək Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən qəbulda 100-dən artıq rayon sakininin, o cümlədən şəhid ailə üzvlərinin və müharibə iştirakçılarının müraciətləri dinlənilib.

Qəbul zamanı vətəndaşlar, əsasən, sosial təminat, məşğulluq, əlillik, reabilitasiya, kommunal xidmətlər, içməli və suvarma su təsərrüfatı, həmçinin digər sosial məsələlərlə bağlı müraciətlər ediblər.

Səlahiyyətli nümayəndə qaldırılan məsələlərin hər birinin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.





# Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Naxçıvan Muxtar Respublikasına səfər edib



Yanvarın 29-da Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.



# Hacıvar kəndində yeni məktəb binası istifadəyə verilib

Yanvarın 30-da Babək rayonunun Hacıvar kəndində yeni məktəb binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov açılış tədbirində iştirak ediblər.

Baş nazirin birinci müavini Elşad Əliyev məktəbin pedaqoji kollektivi ilə görüşdə qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində təhsilin inkişafı prioritet istiqamət kimi əsas yer tutur. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev təhsil sisteminin müasir dövrün tələbləri əsasında inkişafını diqqət mərkəzində saxlayır, ölkəmizdə bu sahədə ardıcıl Dövlət proqramları icra edilir. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, pedaqoji heyətin peşəkarlığının artırılması və rəqəmsal təhsil texnologiyalarının tətbiqini




hədəfləyən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası da uğurla davam etdirilir. Bütün bunlar muxtar respublikada təhsilin keyfiyyətinin, eləcə də qəbul göstəricilərinin daha da artmasına öz müsbət təsirini göstərir.

Elşad Əliyev son illər Naxçıvanda yüksək nəticələri ilə fərqlənən məktəblərdən biri kimi Hacıvar kənd tam orta məktəbinin kollektivini uğurlu fəaliyyəti və yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edib, fəaliyyətlərində yeni nailiyyətlər arzulayıb.

Müəllimlərdən Rəfiqə Sadiqova kollektiv adından yaradılan şəraitə görə minnətdarlıq edib, yeni və müasir imkanlardan səmərəli istifadə edərək təhsil uğurlarını daha da artıracaqlarını bildirib.

Sonra məktəb binasında yaradılan şəraitlə tanışlıq olub.

Bildirilib ki, foyedə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin təhsil ictimaiyyəti ilə görüşləri və bu sahədə həyata keçirilən islahatları əks etdirən fotoguşələr yaradılıb.

Məlumat verilib ki, Hacıvar kənd tam orta məktəbinin binası 456 şagird yerlikdir. İki mərtəbədən ibarət olan məktəb binası 3 əsas, 1 köməkçi korpusdan ibarətdir. Burada proyektorla təmin olunmuş 19 sinif otağı, STEAM, hərbi, kimya, biologiya və fizika kabinələri, laboratoriyalar, əmək otaqları, kompüter sinifləri, akt zalı, müəllimlər otağı, kitabxana, bufet, geniş idman zalı istifadəyə verilib. Müasirtipli siniflər, kabinə və laboratoriyalar tədrisin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək. Məktəbin həyətində qazanxana, qapalı su hovuzu və minifutbol meydançası quraşdırılıb. Bina daxili və xarici nəzarət kameraları ilə təmin edilib.

Sonda məktəbin kollektivi ilə xatirə fotosu çəkdirilib.



# Naxçıvanda “Konstitusiya, Suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış” adlı kitabın təqdimatı keçirilib




Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovun məsləhətçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin müəllifi olduğu “Konstitusiya, Suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış” adlı kitabın təqdimatı keçirilib.



Əvvəlcə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbir iştirakçılarını salamlayıb, kitab haqqında fikirlərini bölüşərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” kimi qeyd olunub. Bu məqsədlə ötən il elmi, mədəni, ictimai-siyasi istiqamətlərdə silsilə tədbirlər həyata keçirilib, elmi-publisist nəşrlər işıq üzü görüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin müəllifi olduğu “Konstitusiya, Suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış” adlı kitabın bu tədbirlərin elmi yekunu kimi dəyərləndirmək olar. Kitabda Azərbaycanın çağdaş siyasi tarixinə yeni missiya ilə daxil olan Prezident cənab İlham Əliyevin milli dövlət quruculuğu və siyasi idarəçiliyinin şərəfli mərhələsinə konseptual elmi və tarixi şərh verilib. Müəllifin uzunmüddətli araşdırmalarının nəticəsi kimi ərsəyə gələn nəşr həm elmi tədqiqatçılar üçün fundamental baza, həm də tələbələr üçün dəyərli dərs vəsaiti kimi mühüm əhəmiyyətə malikdir.

Giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev qeyd edib ki, “Konstitusiya, Suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış” adlı kitab tarixi proseslərin gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm elmi fəaliyyət kimi qiymətləndirilə bilər. Nəşr xalqımızın milli ruhundan qaynaqlanan konstitusiya, suverenlik və siyasi sistem quruculuğu tarixindən bəhs edən mühüm elmi töhfədir.

Elşad Əliyev vurğulayıb ki, kitabda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli inkişaf strategiyasının real nəticələri olaraq son 30 ildən artıq dövrdə respublikamızda həyata keçirilmiş iqtisadi, sosial, siyasi və hüquqi quruculuq proseslərinin inkişaf yolu əhatəli şəkildə təhlil olunur. Kitabın “Konstitusiya və Suverenlik İli”ndə yazıya alınması xüsusi rəmzi məna daşıyır. Müəllif Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın çağdaş siyasi tarixində formalaşan yeni mərhələyə elmi və konseptual yanaşma təqdim edir.



Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən Müslüm Cabbarzadə çıxış edərək kitabı həm elmi, həm tarixi, həm də yeni siyasi konfiqurasiya baxımından yüksək elmi-tədqiqat əsəri kimi dəyərləndiriblər. Qeyd olunub ki, nəşr oxucuda Azərbaycanın siyasi tarixi, dünəni, bu günü və gələcəyi barədə yekdil fikir formalaşdırmağa imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayev müəllifi olduğu kitabın təqdimatına, səslənən fikirlərə görə təşəkkür edib, nəşrin ölkə başçısı cənab İlham Əliyevin Naxçıvana olan yüksək diqqət və qayğısına minnətdarlığın kiçik ifadəsi olduğunu vurğulayıb. Qeyd olunub ki, kitabın məsləhətçisi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovdur. Kitabın elmi redaktoru Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, hüquq elmləri üzrə fəlsəfə doktoru, professor Ziyafət Əsgərov, ön sözün müəllifi Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, AMEA-nın müxbir üzvü Musa Qasımlı, rəyçiləri isə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadədir.

Sonda xatirə şəkli çəkdirilib.

# Ali Məclisin komitə iclasları keçirilib



Yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Nuray Əliyeva gündəliyə 2025-ci ilin payız sessiyası dövründə Sosial siyasət komitəsində görülən işlər barədə hesabatın daxil olduğunu bildirib.

Sonra Nuray Əliyeva Ali Məclisin 2025-ci ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabatla çıxış edib, sessiya müddətində komitənin müvafiq dövlət orqanları və Ali Məclis Aparatının müvafiq şöbələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində səmərəli fəaliyyət göstərdiyini qeyd edib. Eyni zamanda Ali Məclisin 2026-cı il yaz sessiyasında görüləcək işlər müzakirə olunub.

Sonda məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

***

Həmin gün Ali Məclisin Hüquq siyasəti komitəsinin də iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin yaz sessiyasının əvvəlində öz işi barədə hesabatı, yaz sessiyasının əvvəlində görülmüş işlər, qarşıda duran vəzifələr, Ali Məclisin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planına daxil edilməsi nəzərdə tutulan normativ sənədlərin müzakirəsi və cari məsələlərin daxil edildiyini diqqətə çatdırıb.



Əjdər Əliyev Ali Məclisin 2025-ci il payız sessiyası ərzində komitənin fəaliyyətinə dair hesabatını diqqətə çatdırdıqdan sonra gündəlikdə duran məsələlər müzakirə olunub, komitə üzvlərinin çıxışları dinlənilib.

Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Emin Şıxəliyev gündəliyə komitənin 2025-ci il payız sessiyası dövründə gördüyü işlər və qarşıdakı dövrdə görüləcək işlərin müzakirəsinin daxil olduğunu diqqətə çatdırıb.

Komitə sədri Emin Şıxəliyev iclasda Ali Məclisin 2025-ci ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabatla çıxış edib. Eyni zamanda Ali Məclisin 2026-cı il yaz sessiyasında görüləcək işlər müzakirə olunub, komitə üzvlərinin çıxışları dinlənilib.



***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin də iclası keçirilib.

Komitə sədri Ülkər Bayramova iclasın gündəliyinə yeddinci çağırış Ali Məclisin Humanitar siyasət komitəsinin 2025-ci ilin ötən dövrü ərzində fəaliyyətinə dair hesabatının daxil edildiyini bildirib.

Ülkər Bayramova Ali Məclisin 2025-ci il payız sessiyası ərzində komitənin fəaliyyətinə dair hesabatını diqqətə çatdırdıqdan sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb, komitə üzvlərinin çıxışları dinlənilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Gəncliyimiz gələcəyimizdir

## Gənclər – Azərbaycanın bu günü və sabahıdır

**Prezident İlham ƏLİYEV:**

*“Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.”*

Cəmiyyətin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənclərin fəaliyyəti bu gün hər yerdə görünməkdədir. Azərbaycan gəncləri ölkəmizin ən qiymətli sərvətidir. Müasir dövrdə hər bir dövlətin inkişaf strategiyasında gənclərin rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dövləti gənclər siyasətində uğurlu model yaratmaqla regionda fərqlənir, ölkəmizin gələcəyini sağlam təməllər üzərində qurur.

Ulu Öndərin əsasını qoyduğu gənclər siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirilir. Son illərdə gənclərin inkişafı üçün geniş infrastruktur yaradılmış, gənclər evləri, olimpiya idman kompleksləri, idman qurğuları, yaradıcılıq və innovasiya məkanları istifadəyə verilmişdir. Bu məkanlar gənclərin asudə vaxtlarının səmərəli təşkili, sağlam həyat tərzinin təşviqi və bacarıqlarının inkişafı baxımından mühüm rol oynayır. Dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasət gənclərin sosial, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Dövlət proqramları, strateji və innovativ layihələr, ümumilikdə, gənclərə göstərilən etimad sayəsində gənc nəslin təhsil imkanları, karyera yüksəlişi və hərtərəfli inkişafı üçün əlverişli mühit formalaşdırılıb. Bu yalnız müasir və çevik yanaşmanın nəticəsi deyil, həm də gənclərin potensialını tam reallaşdırmaq üçün dövlətin göstərdiyi inamın göstəricisidir. Azərbaycan gənci dövlətin sosial dayağı, intellektual potensialı və strateji inkişaf resursudur. Bu mənada, gənclərlə iş sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş, gənclərin hüquq və maraqlarının qorunması, onların bilik və bacarıqlarının artırılması, cəmiyyətə inteqrasiyası üçün ardıcıl və kompleks tədbirlər həyata keçirilmişdir.

Dövlət proqramları çərçivəsində gənclərin məşğulluğunun təmin edilməsi, sahibkarlıq fəaliyyətinə cəlb olunması, startap və innovativ ideyalarının dəstəklənməsi istiqamətində mühüm layihələr icra olunur, startap ekosistemi dəstəklənir, innovativ layihələrə investisiyalar qoyulur. Bu, gənclərin yalnız peşə bacarıqlarını inkişaf etdirməsinə deyil, həm də ölkədə iqtisadi fəallığa qoşulmasına imkan yaradır. Məsələn, regional mərkəzlərdə yaradılan təhsil və innovasiya mərkəzləri gənclərin bilik və bacarıqlarını artırmaqla yanaşı, onların liderlik potensialını da gücləndirir. Gənclər üçün təqaüd və mükafat sistemlərinin genişləndirilməsi, xaricdə və ölkə daxilində təhsil imkanlarının artırılması, könüllülük hərəkatının təşviqi gənclərin fəallığını daha da gücləndirmişdir. Gənclərin sosial müdafiəsi də xüsusi diqqət mərkəzindədir. Təqaüdlər, sosial paketlər, ixtisaslaşmış təlimlər və mentorluq proqramları onların cəmiyyətdə fəal iştirakını təmin edir. Ölkəmizdə gənclər təşkilatlarının dəstəklənməsi, könüllülük hərəkatının genişləndirilməsi gənclərin vətəndaş məsuliyyətini və sosial mövqeyini gücləndirir.

Prezident İlham Əliyevin hakimiyyətdə olduğu dövr ərzində Azərbaycanda vətənpərvər, sağlamdüşüncəli və gələcəyimizi etibar edə biləcəyimiz gənc nəsil yetişib. Azərbaycan gəncləri ölkəmizin ərazi bütövlüyünün bərpasında, Vətən müharibəsində və sonrakı quruculuq proseslərində də öz vətənpərvərliyi, fədakarlığı və yüksək mənəvi keyfiyyətləri ilə tarix yazmışdır. Bu gün gənclərimiz azad edilmiş ərazilərin bərpasında, Böyük Qayıdış prosesində fəal iştirak edir, yeni və daha güclü Azərbaycanın qurulmasına töhfələr verirlər.

Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclər siyasətinə önəm verərək onların təşkilatlanmasına xüsusi diqqət ayırıb. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər gənc nəslə qayğısını əsirgəməyib. Dövlət başçısı kimi həm dahi şəxsiyyət Heydər Əliyev, həm də cənab İlham Əliyev tərəfindən müxtəlif illərdə gənclərlə bağlı qanunlar qəbul olunmuş, fərman və sərəncamlar imzalanmışdır ki, bu da gənc nəslin hərtərəfli inkişafı üçün atılan ən mühüm addımlardan biridir. İnkişafdan danışarkən, əlbəttə ki, Dövlət proqramlarını xüsusi qeyd etməliyik. Azərbaycan gəncliyi ilə bağlı qəbul olunan ardıcıl Dövlət proqramlarının (2005-2009, 2011-2015, 2017-2021) uğurlu icrası, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün “Prezident Mükafatı”nın təsis edilməsi, gənclər forumlarının keçirilməsi gənc nəslin hərtərəfli inkişafını stimullaşdırıb. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Dövlət Proqramı çərçivəsində minlərlə gəncə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam ifadə edərək bildirib: ***“Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır”.***

Son illər ərzində gənclərin ictimai fəallığı yüksəlib, onların idarəetmədəki rolu artıb. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan Bayrağı xarici dövlətlərdə qürurla yüksəlir. Müxtəlif xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun formalaşmasında və lobbiçilik fəaliyyətində yaxından iştirak edirlər. Gənclik gördüyü işlə, qazandığı nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə töhfə verir. Bu gün hər kəsə yaxşı məlumdur ki, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda da daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Ölkəmizdə sağlam gənclik yetişib. Sağlam gənclik isə sağlam nəsil deməkdir. Bu gün tam əminliklə söyləyə bilərik ki, müstəqil Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində yetişən sağlam gənclik ölkəmizdə bütün sahələrdə fəallıqları ilə seçilirlər.

Bu gün ölkə gəncliyinin aktiv bir qolu olan Naxçıvan gəncləri də öz enerjisi, bilik və təşəbbüskarlığı ilə cəmiyyətdə mühüm yer tutur. Son illərdə yaradılan imkanlar gənclərin potensialını üzə çıxarmağa, onları cəmiyyətin fəal üzvünə çevirməyə xidmət edir. Müasir idman qurğuları, təlim və inkişaf proqramları gənclərin ideyalarına açıq platforma rolunu oynayır. Naxçıvanda gənclərin asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. İntellektual yarışlar, forumlar, könüllülük proqramları, sosial layihələr gənclərin ictimai fəallığını artırır, onların liderlik və təşkilatçılıq bacarıqlarını formalaşdırır. Gənclər artıq təkcə tədbirlərin iştirakçısı deyil, eyni zamanda təşəbbüskarına çevrilir.

Muxtar respublikada idman sahəsində yaradılan şərait diqqətəlayiqdir. Müasir idman mühiti minlərlə gəncin sağlam həyat tərzinə cəlb olunmasına imkan yaradır. Bu imkanların nəticəsidir ki, Naxçıvanın gənc idmançıları ölkə və beynəlxalq səviyyəli yarışlarda uğurla çıxış edir, mühüm göstəricilərə nail olurlar. İdmançılar Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edir, yüksək nailiyyətlər qazanırlar. Gənclərin məşğulluğu və sosial rifahı da daim diqqət mərkəzindədir. Peşə hazırlığı kursları, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, özünüməşğulluq proqramları gənclərə gələcəyini burada – Naxçıvanda qurmaq imkanı verir. Bu yanaşma regionda gənclərin potensialından səmərəli istifadə olunmasına şərait yaradır. Xüsusi vurğulanmalıdır ki, Vətən müharibəsi dövründə Naxçıvan gəncləri də həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq göstərmişdir. Bu gün həmin gənclər sülh və quruculuq şəraitində ölkənin inkişafına, milli birliyin möhkəmlənməsinə töhfə verməkdə davam edirlər.

Naxçıvanda həyata keçirilən layihələrin əsas məqsədi gəncləri milli-mənəvi dəyərlərə bağlı, müasir düşüncəli, təşəbbüskar və sağlam ruhlu vətəndaşlar kimi yetişdirməkdir. Bu istiqamətdə görülən işlər gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə xidmət edir. Bu gün Naxçıvanda yetişən gənc nəsil sabahın məsuliyyətini daşımağa hazırdır. Onların enerjisi, bilik axtarışı və vətənpərvərliyi, bütövlükdə, Azərbaycanın parlaq gələcəyinin əsas təminatıdır.

Əminik ki, Azərbaycan gəncliyi bundan sonra da dövlətə və milli dəyərlərə sadiq qalaraq müasir bilik və bacarıqlara yiyələnəcək, ölkəmizin davamlı inkişafında mühüm rol oynayacaqdır. Gənclərimizin enerjisi, intellekti və fəallığı müasir Azərbaycanın ən güclü kapitalıdır.

**Məcid SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən***



***Dünyada çox sayda sənət və minlərlə peşə var. Rəssam şəkil çəkir, bəstəkar musiqi bəstələyir, müəllim təhsilli gənclik yetişdirir, həkim sağlamlığımızın qayğısına qalır. Tarixçi dünəni, bu günü yazır. Sənətini, gördüyü işi ürəkdən sevən hər kəs yaratdığı bir əsərə, ya da ki, gözəl bir rəsmə, qələmə aldığı məqaləyə illər sonra baxanda qürur duyur. Vətənə sevgi, dövlətə sədaqət andı içib və bu andına sadiq qalan hər bir gənc hər birimizin qüruru və sevincidir. Vətən onu sevən savadlı, cəsarətli gənclərin addımları ilə irəli gedir. Dövlət başçısının dediyi kimi: “Ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır”. Bugünkü müsahiblərimiz onlardan bir neçəsidir.***

# Vətəninə, dövlətinə qəlbən bağlı olan gənclər

### Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir



Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanasının Təcili yardım şöbəsində tez-tez rast gəlirəm əslən Sabirabaddan olan gənc həkim Əlisahib Həsənliyə. Onunla həmsöhbət olduğumuzda bildirdi ki, Azərbaycan Tibb Universitetində təhsil alıb. “Xalqın müqəddəs saydığı, inanıb, etibar etdiyi həkim adını daşımaq olduqca şərəfli və məsuliyyətlidir”, – deyən gənc həkim bildirir ki, bu peşəni seçənlər dünyaya yenidən qaytardıqları insanlara, dünyaya göz açmasına yardım etdikləri körpələrə, gözünə nur bəxş etdikləri insanlara baxanda qürurlanır, sağlamlığa qovuşdurduğumuz insanlarla birlikdə gülüb, sevinirlər.

“Gecəsi-gündüzü bilinməyən bir peşənin sahibi olmaq çox məsuliyyətlidir. Çünki hər an fövqəladə vəziyyətə hazır olmalıyıq və hazırıq səngərdə Vətəni qoruyan müsəlləh əsgər kimi. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili yardım şöbəsinin həkimiyəm. Burada nevroloq həkim-rezident kimi insanların sağlamlığının qeydinə qalıram. Bacarıqlı həkim olmaq üçün ölkəmizdə hər cür şərait var. Gənclərə göstərilən qayğıdan bəhrələnərək tibb sahəsində təhsil almışam və işimin bununla da bitmədiyini düşünürəm. Həkimlik elə bir sənətdir ki, daim öyrənməlisən və daim oxumalısan, çünki tibb elmi də inkişaf edir və müasirləşir”. Naxçıvan barədə fikirlərini də bildirən həkim qeyd etdi ki, iqlimi sərt olsa da, insanları çox səmimi və qonaqpərvərdir bu yurdun. İşlədiyi xəstəxanada iş yoldaşlarının arasındakı mehriban münasibət özünü evindəki kimi hiss etdirir.

Mustafa Həsənov əslən Şəkidəndir. O, Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasında təhsil alıb. 2017-ci ildə ali təhsilini başa vurub. Həkim qeyd edir ki, onun tibb sahəsinə marağı uşaqlıq illərində yaşadığı şəxsi təcrübə ilə bağlıdır. Uşaq yaşlarında gözlərindən əməliyyat olunan Mustafa Həsənov uzun müddət oftalmoloq olmağı arzulayıb. Bu arzunun əsas səbəbi yaşadığı ağrını heç bir uşağın bir daha yaşamamasını istəməsi olub. Lakin universitetin son kurslarında o, insan sağlamlığının yalnız fiziki deyil, eyni zamanda psixoloji tərəfinin də nə qədər həssas və önəmli olduğunu anlayıb. Məhz bu düşüncə onu rezidentura təhsilində psixiatriya ixtisasını seçməyə sövq edib. Həkimlik peşəsində empatiyanın mühüm rol oynadığını deyən müsahibimizin fikrincə, ağrını yaşamış həkim xəstəni daha yaxşı anlayır və bu anlayış müalicənin ən vacib hissəsidir.

Həkim onu da deyir ki, o, 2023-cü ilin may-sentyabr



aylarında Şəki Rayon Mərkəzi Xəstəxanasının tabeliyində olan İnçə kənd həkim məntəqəsində müdir vəzifəsində çalışıb. Daha sonra 2023-cü ilin oktyabr ayından 2024-cü ilin sentyabr ayına qədər Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həkim-rezident kimi fəaliyyət göstərib. Hazırda isə o, Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin Psixiatriya şöbəsində həkim-rezident kimi çalışmaqla bərabər Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili yardım şöbəsində gecə növbəsində növbətçi həkim kimi işləməklə öz tibbi biliklərini artırır və daha çox təcrübə toplayır. Mustafa Həsənovun Naxçıvanı seçməsi də təsadüfi olmayıb. O, əvvəllər də bu bölgəni yaxından tanımaq arzusunda olub və rezidentura təhsili bu istəyin gerçəkləşməsinə imkan yaradıb. Qeyd edir ki, burada olmaqdan çox məmnundur, çünki Naxçıvandakı mühit çox yaxşıdır.

### Mən dünyada müəllimdən yüksək ad tanımıram




Azərbaycan cəmiyyətində müəllim peşəsi hər zaman xüsusi hörmət və ehtiramla qarşılanıb. Çünki müəllim yalnız bilik verən deyil, həm də şəxsiyyət formalaşdıran, vətəndaş yetişdirən, milli-mənəvi dəyərləri gələcək nəsillərə ötürən müqəddəs missiyanın daşıyıcısıdır. Bu gün təhsil sahəsində çalışan, peşəsinə sevgi və məsuliyyətlə yanaşan gənc müəllimlərimiz gələcəyimizin etibarlı əllərdə olduğunu bir daha sübut edirlər. Belə gənclərdən ikisi də müəllim peşəsini seçən, bu peşəni özünə şərəf bilən Amin Yusifov və onun həyat yoldaşı Rəqsanə Yusifovadır. Ordubad rayonunun Ələhi kənd tam orta məktəbində fəaliyyət göstərən gənc tarix müəllimi Amin Yusifovla həmsöhbət olan zaman öyrənirik ki, 2000-ci ildə Samux rayonunun Alıuşağı kəndində anadan olub. Valideynləri 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun Susuzluq kəndindən məcburi köçkün düşərək Samux rayonunda məskunlaşıblar. Bu həyat yolu, yurd nisgili, Vətən həsrəti Amin Yusifovun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayıb. Gəncə Dövlət Universitetinin Tarix müəllimliyi ixtisasına qəbul olunaraq 2021-ci ildə ali təhsilini başa vurub. 2023-cü ildə Ordubad rayon Xurs kənd tam orta məktəbində tarix müəllimi kimi çalışan gənc pedaqoq 2024-cü ildən Ələhi kənd ümumi orta məktəbində müəllim, hazırda isə direktor əvəzi vəzifəsində çalışır. Amin Yusifovun həyat yoluna diqqət yetirdikdə onun təhsilə, dövlətçiliyə və Vətənə bağlılığını aydın görmək mümkündür. Tarix müəllimi kimi o, şagirdlərinə yalnız faktları deyil, milli yaddaşı, Azərbaycançılıq ideyasını aşılayır.

Bu ailədə müəllimlik ənənəsi həyat yoldaşı Rəqsanə Yusifova tərəfindən də uğurla davam etdirilir. Gəncə Dövlət Universitetinin Xarici dillər fakültəsinin İngilis dili müəllimliyi ixtisasına qəbul olunan Rəqsanə Yusifova 2024-cü ildə ali təhsilini başa vurub. O, Ordubad rayon Nəsirvaz kənd tam orta məktəbində müddətli müqavilə ilə müəllim kimi fəaliyyət göstərib, 2025-ci ildən isə Xurs kənd tam orta məktəbində ingilis dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir. Onun sözlərinə görə, dərs dediyi şagirdlərdə, ilk növbədə, məhz vətənpərvərlik hisslərini formalaşdırmağa çalışır: “Bu ruhda böyüyən nəsil gələcəkdə istər Vətənin müdafiəsində, istər milli və mədəni dəyərlərin qorunmasında, istərsə də dövlətçilik ənənələrinin yaşadılmasında öz vəzifəsini layiqincə yerinə yetirəcək. Mən də bir müəllim kimi bu missiyanı özüm üçün mənəvi borc hesab edirəm”. Bu gün təhsil sahəsində səmərəli fəaliyyəti ilə seçilən Amin Yusifov və Rəqsanə Yusifova kimi gənc müəllimlər cəmiyyətimiz üçün əsl örnəkdir. Onlar gənc pedaqoqlar kimi həm də Vətənə bağlı, milli dəyərlərə sadiq, məsuliyyətli vətəndaşlar yetişdirən ziyalılardır. Özləri gənc olsalar da, gələcəyin quruculari olan gənc nəslin hərtərəfli formalaşmasına mühüm töhfə verirlər. Belə müəllimlərin fəaliyyəti onu deməyə əsas verir ki, Azərbaycan təhsilinin sabahı etibarlı əllərdədir.

### Milli mədəniyyət Azərbaycan xalqının varlığının, mənəviyyatının və dövlətçiliyinin təməlidir



Milli mədəniyyətimizi yaşatmaq, onu gələcək nəsillərə ötürmək hər birimizin borcudur. Müsahibimiz də onlardan biridir. Fatimə Kazımova Naxçıvan Musiqi Kollecinin məzunudur və hazırda Bakı Xoreoqrafiya Akademiyasında təhsilini davam etdirir. O əsasən, uşaqlarla işləyir, eyni zamanda universitetdə pedaqoji fəaliyyət göstərir. Gənc olmasına baxmayaraq, həm təhsilini davam etdirməsi, həm də praktiki fəaliyyətini paralel şəkildə inkişaf etdirməsi onun sənətə və müəllimliyə məsuliyyətli yanaşmasının göstəricisidir.

Rəqsə marağı uşaqlıq illərindən formalaşan Fatimə Kazımova bu sahədə qısa müddətli səhnə təcrübəsi də qazanıb, pedaqoji istiqamətə yönəlib. Onun yanaşmasına görə, səhnə təkcə sənətini nümayiş etdirdiyi məkan deyil, həm də insanı formalaşdıran bir məktəbdir. Səhnə intizam, zəhmət, məsuliyyət və özünə inam kimi keyfiyyətləri aşılayır. Bu dəyərlər Fatimə Kazımovanın müəllim kimi formalaşmasında və şagirdlərlə iş prosesində əsas prinsiplərdən biridir. Müxtəlif yaş qrupları ilə işləmək, onların potensialını müşahidə etmək müəllim olaraq məsuliyyəti daha da artırır. O, gənclərin düzgün istiqamətləndirildiyi halda böyük uğurlar qazana biləcəyinə inanır. Fatimə xanım üçün müəllimlik fəaliyyətində ən dəyərli nəticə şagirdlərinin uğurunu görməkdir. Şagirdlərin özlərinə olan inamlarının artması, qazandıqları bilik və bacarıqları gündəlik həyatlarında tətbiq etmələri onun əməyinin qarşılığı hesab olunur. Onun fikrincə, uğura aparan yol zəhmət və səbirdən keçir və bu keyfiyyətlər hər bir gəncin həyatında həlledici rol oynayır. Fatimə Kazımovanın fəaliyyəti bir daha göstərir ki, gənclər düzgün istiqamət və məqsədlə həm sənətdə, həm də təhsildə cəmiyyət üçün dəyər yarada bilirlər.

*Bugünkü müsahiblərimiz Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələrdə xidmət göstərən, işini vicdanla və sevərək yerinə yetirən gənclərdən bir neçəsidir. Biz onların simasında bir daha gördük ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki Azərbaycan gəncliyi öz Vətəni və dövləti ilə fəxr edir, qürur duyur, işlədiyi sahədə elinə-obasına xidmət etməyə canla-başla çalışır.*

**“Şərq qapısı”**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 13.02.2026, saat $11^{00}$, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 13.02.2026, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 20.02.2026, saat $15^{00}$, Şərur rayonu, Kərimbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 17.02.2026, saat $15^{00}$, Şərur rayonu, Çomaxtur Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 12.02.2026, saat $15^{00}$, Şərur rayonu, Arbatan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 12.02.2026, saat $10^{30}$, Şərur rayonu, Stansiya Daşarx kənd sakinləri, Xanlıqlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 24.02.2026, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 06.02.2026, saat $11^{00}$, Şərur rayonu, Məmmədsabir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 27.02.2026, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 24.02.2026, saat $15^{00}$, Şərur rayonu, Axura Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 18.02.2026, saat $15^{00}$, Şərur rayonu, Ələkli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 27.02.2026, saat $15^{00}$, Şərur rayonu, Danyeri Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 20.02.2026, saat $10^{30}$, Kəngərli rayonu, Qabıllı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidov Miramin Mirabbas oğlu, 050-865-90-90 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 18.02.2026, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 23.02.2026, saat $14^{00}$, Kəngərli rayonu, Çalxanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 25.02.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 20.02.2026, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 20.02.2026, saat $10^{00}$, Babək rayonu, Şəkərabad Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 20.02.2026, saat $11^{00}$, Babək rayonu, Yarımca Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 25.02.2026, saat $15^{00}$, Babək rayonu, Qaraqala kənd tam orta məktəbin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 18.02.2026, saat $14^{00}$, Babək rayonu, Şıxmahmud Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 16.02.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri qəsəbə 1 nömrəli tam orta məktəbin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 24.02.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Tumbul Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 24.02.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 11.02.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, Hacıniyyət kəndi səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 20.02.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 20.02.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 20.02.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 3 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 24.02.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 27.02.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 12.02.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, Xətai məhəllə sakinləri səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 23.02.2026, saat $12^{00}$, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 12.02.2026, saat $11^{00}$, Şahbuz rayonu, Keçili Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 06.02.2026, saat $11^{00}$, Şahbuz rayonu, Aşağı Qışlaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 19.02.2026, saat $15^{00}$, Şahbuz rayonu, Türkeş Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>19.02.2026, saat $16^{00}$, Şahbuz rayonu, Sələsüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 20.02.2026, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 20.02.2026, saat $11^{00}$, Culfa rayonu, Gülüstan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 18.02.2026, saat $11^{00}$, Culfa rayonu, Bənəniyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 20.02.2026, saat $10^{00}$, Culfa rayonu, Xanəgah Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 12.02.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>27.02.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 05.02.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>19.02.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>27.02.2026, saat $15^{00}$, Ordubad rayonu, Kotam Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43<br>Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 17.02.2026, saat $16^{00}$, Ordubad rayonu, Dırnıs Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 20.02.2026, saat $11^{00}$, Ordubad rayonu, Çənnəb kənd tam orta məktəbin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 17.02.2026, saat $12^{00}$, Ordubad rayonu, Baş Dizə Kənd Mərkəzi | Cəfərli Toğrul İman oğlu, 050-306-93-77 |

# Ötən il 244 istedadlı şəxsin 28304 manat dəyərində 4129 əl işi satılıb

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında 2025-ci ildə görülən işlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib.



İclasda komitənin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, komitə öz fəaliyyətini, əsasən, dörd istiqamətdə – ailə, qadın, uşaq və gender sahələrində qurub. Xüsusilə uşaqların hüquqlarının qorunması, onların təhsilə cəlb olunması, asudə vaxtlarının səmərəli keçirilməsi, onların erkən nikaha daxil olmasının, qanunsuz əməyə cəlb edilməsinin qarşısının alınması ilə bağlı tədbirlər həyata keçirilib. Belə ki, hesabat dövrü ərzində 10 uşaq əməyinin qarşısı alınıb, 33 uşağın təhsilə cəlbi təmin edilib, xüsusi qayğıya ehtiyacı olan uşaqlara bayram tədbirlərində 293 hədiyyə verilib, həmçinin istedadları ilə fərqlənən 161 uşağa diplom və hədiyyə təqdim olunub. Hesabat dövrü ərzində uşaq məsələləri ilə bağlı 66 tədbir, 9 seminar, 28 təlim, 2 ustad dərsi, 1 yay düşərgəsi, 2 festival, 84 monitorinq, 3 ekskursiya, 1 film nümayişi, 16 görüş keçirilib, tədbirlərdən 6371 nəfər yararlanıb, 2468 ədəd təbliğat materialı paylanılıb, o cümlədən 58 poster elan lövhələrinə vurulub.

Ramilə Seyidova qadın hüquqlarının qorunması, onların istedadlarının üzə çıxarılması yönündə görülən işlərdən bəhs edərək bildirib ki, qadınların özünüməşğulluğunun təmin edilməsi məqsədilə komitə tərəfindən 6 sərgi-satış keçirilib, 244 istedadlı şəxsin 28304 manat dəyərində 4129 əl işi satılıb. Sərmayə kapitalı alan 15 qadının yaşadığı ünvanda monitorinq keçirilib, komitədə məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu yaradılıb. Ümumilikdə, qadın məsələləri ilə bağlı 1 konfrans, 31 tədbir, 15 monitorinq, 6 görüş, 4 təlim, 1 müsabiqə, 6 sərgi-satış və 1 ustad dərsi keçilib, bu tədbirlərdən 2550 nəfər yararlanıb, 1772 broşür paylanılıb, 295 sorğu keçirilib, 8 poster məlumat lövhələrinə vurulub.

2025-ci il ərzində ailə məsələləri ilə əlaqədar maarifləndirmə və dəstək tədbirləri həyata keçirilib. Komitə tərəfindən ailə məsələləri ilə bağlı 133 görüş, 55 tədbir, 1 konfrans, 4 iclas, 2 müsabiqə və 6 təlim təşkil olunub, bu tədbirlərdən 3770 nəfər iştirakçı yararlanıb. Bu barədə 494 sorğu keçirilib, 2886 ədəd broşür paylanılıb və 26 poster elan lövhəsinə vurulub. Şəhid ailələrinə göstərilən diqqət və qayğıdan da bəhs edən Ramilə Seyidova qeyd edib ki, 2025-ci il ərzində komitə tərəfindən mütəmadi olaraq şəhid ailələri ilə görüşlər keçirilib və şəhidlərimizin məzarları ziyarət edilib.

Komitə sədri yekunda bildirib ki, ümumilikdə, 2025-ci il ərzində 3 kollegiya iclası, 4 iclas, 2 konfrans, 2 festival, 159 tədbir, 155 görüş, 50 təlim, 9 seminar, 99 monitorinq, 6 sərgi-satış, 3 ustad dərsi, 3 ekskursiya, 4 müsabiqə keçirilib ki, bu da 499 müxtəlif səpkili tədbir deməkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar Regional Ailə mərkəzlərinin yaradılması ilə bağlı işlər görülüb, tender sorğusu keçirilib, Şərur və Culfa Regional Ailə mərkəzlərinin layihə-smeta sənədlərinin satınalması məqsədilə keçirilmiş tender sorğusunun qalibi "BİMD" QSC ilə müqavilə bağlanılıb və layihələndirmə ilə bağlı işlərə başlanılıb. Hesabat dövrü ərzində şirkət tərəfindən Şərur və Culfa Regional Ailə mərkəzlərinin inzibati binalarının tikintisinin layihə-smeta sənədləri hazırlanaraq komitəyə təqdim edilib. Tikiləcək Regional Ailə mərkəzlərinin inzibati binalarının tikintisinin layihə-smeta sənədləri hazırda aid qurum tərəfindən ekspertiza mərhələsindədir.

Sonra məruzə ətrafında çıxışlar olub, komitənin 2026-cı il üçün iş planı təsdiq edilib və kollegiyanın qərarı qəbul edilib.

## Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu qrafiki

| S/n | Qəbulu keçirilən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri** Süleyman Neymətov | Babək | 02.02.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri** Kazım Hüseynəliyev | Sədərək | 19.02.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri** Xanlar Mustafayev | Babək | 19.02.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Şərur | 12.02.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov | Ordubad | 24.02.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Həsən Seyidov | Culfa | 20.02.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Şərur | 17.02.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri** Səfərəli Nəsirov | Kəngərli | 04.02.2026 |
| 9. | **"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri** Elnur İbrahimov | Culfa | 17.02.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən** Müslüm Cabbarzadə | Şahbuz | 10.02.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat $11^{00}$-da başlayır.**

# Naxçıvanda sahibkarlığın inkişafı üçün yeni imkanlar – vergi, sosial və gömrük güzəştləri

Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti sayəsində Azərbaycan həm müharibə meydanında, həm də sülh masasında tarixi zəfərlər qazanmaqla özünün yeni inkişaf xəritəsini uğurla inşa etməkdədir. Bu inkişaf və tərəqqi xəritəsində işğaldan azad olunmuş Qarabağ torpaqları ilə paralel, Naxçıvan da böyük yerə və rola malikdir. Dövlət başçısının ***"Naxçıvanla bağlı böyük planlarımız var"*** ideyasına söykənən genişmiqyaslı konsepsiyanın əsas prioritetləri sırasında reallaşma mərhələsində olan Zəngəzur dəhlizi, Azad İqtisadi Zona və "yaşıl enerji" layihələri yer alır. Bütün bu və digər təşəbbüslərin gerçəkləşməsində əsas məqsəd bir-birinə yaxın olan Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanı birgə mühüm ticarət və turizm mərkəzinə çevirməkdir. Prezident İlham Əliyev bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də sözügedən məsələyə xüsusi toxunaraq deyib: ***"Naxçıvanın Baş planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər "yaşıl enerji" olsun, istər kənd təsərrüfatı, istər suvarma, – indi orada böyük suvarma layihələri icra ediləcək, – istər turizm, bu bölgəni biz birləşdirəcəyik".***

Naxçıvanın sosial-iqtisadi inkişafının əsas yol xəritəsini müəyyənləşdirən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bu bölgənin tərəqqisi naminə mühüm təşəbbüs və layihələrin icrası nəzərdə tutulur. Həmin layihələr, ilk növbədə, muxtar respublika iqtisadiyyatının dirçəldilməsi və burada əlverişli biznes mühitin formalaşdırılmasını hədəfləyir. Proqramın icrasını təmin edən, xüsusilə kiçik və orta sahibkarlığın genişlənməsinə, xidmət sektorunun canlanmasına təkan verəcək mütərəqqi addımlardan biri də ötən il dekabrın 29-da Prezident İlham Əliyevin Milli Məclisin qəbul etdiyi Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında", "Sosial sığorta haqqında" qanunlara dəyişiklikləri təsdiqləməsi oldu. Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" qanuna dəyişikliklə Naxçıvan Muxtar Respublikasının rezidentləri 2026-cı ilin yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edildilər.

Vergi Məcəlləsinə edilən əlavələrə görə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı bu il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azad edilib. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunub. Dəyişikliyə əsasən bu mallar həmin dövrdə həm də gömrük rüsumlarından azaddır. Göründüyü kimi, Vergi Məcəlləsinə edilən dəyişikliklər paketinin əsas istiqamətləri investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi daxilolmalarının və büdcə gəlirlərinin tənzimlənməsi, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və əlalxüsus da, "kölgə iqtisadiyyatı"na qarşı mübarizədir. Bu baxımdan, həmin qərar, ilk növbədə, Prezident İlham Əliyevin ***"Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır"*** fikirlərinin praktiki təsdiqidir.

Qarabağ və Şərqi Zəngəzur kimi, Naxçıvan üçün də müəyyənləşdirilən güzəştlər həm də sosial sığorta sahəsinə aiddir. Belə ki, "Sosial sığorta haqqında" qanuna təklif edilən dəyişikliklər sahibkarların sosial sığorta yükünün optimallaşdırılması, Naxçıvan Muxtar Respublikasında ödənilən məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılmasını əhatə edir. Sosial güzəşt tədbirləri kimi 2026-2036-cı illərdə Naxçıvan Muxtar Respublikasının rezidenti olan, qeyri-dövlət sektoruna aid edilən və müvafiq iqtisadi fəaliyyət növləri təsnifatına uyğun olaraq bilavasitə istehsal, o cümlədən emal və hasilat sahəsində (neft-qaz sahəsi istisna olmaqla) fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş (işçilərə görə) məcburi dövlət sosial sığorta haqlarının 2026-2029-cu illər üzrə 100 faizinin, 2029-2032-ci illər üzrə 80 faizinin, 2032-2034-cü illər üzrə 60 faizinin, 2034-2036-cı illər üzrə isə 40 faizinin dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması nəzərdə tutulur.



Bu qərarlar Naxçıvanda sahibkarlığın inkişafı istiqamətində yeni dönəmin başlandığını göstərir. Dövlət Proqramının icrası, eyni zamanda Zəngəzur dəhlizi və AİZ-in reallaşdırılması fonunda tətbiq olunan vergi, sosial və gömrük güzəştləri muxtar respublika iqtisadiyyatına yerli sərmayələrin, investisiyaların cəlbinə şərait yaradacaq ki, bu sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı və paralelində də yeni iş yerlərinin yaradılması, əhali məşğulluğunun artırılması deməkdir. Bütün bu proseslərin reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm kənd təsərrüfatı dirçəldiləcək, ticarət, logistika ilə yanaşı, turizm sektorunda da böyük canlanma yaranacaq. Prezident İlham Əliyev son dövrlərdə keçirdiyi beynəlxalq əhəmiyyətli görüş və verdiyi müsahibələrdə dəfələrlə Naxçıvanın inkişafının prioritet məqsədlərdən olduğuna diqqəti çəkməsi də belə deməyə əsas verir ki, yaxın 10 il muxtar respublikanın həyatında mühüm müsbət dəyişikliklərlə yadda qalacaq. Bu yeniliklər bölgənin həm iqtisadi, həm də sosial mənzərəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaqla, ümumilikdə, ölkə iqtisadiyyatının dayanıqlığının artırılmasına və vətəndaşların yaşayış səviyyəsinə əhəmiyyətli töhfələr verəcək.

**"Şərq qapısı"**

# NDU-nun rektoru media nümayəndələri üçün brifinq keçirib



*Brifinqdə 2025-ci ilin Naxçıvan Dövlət Universiteti üçün uğurlar, yeniliklər və nailiyyətlərlə yadda qaldığını qeyd edən rektor bildirib ki, il ərzində universitet yalnız təhsil keyfiyyətinin yüksəldilməsi və tələbələrin elmi, sosial fəaliyyətlərinin inkişafı sahəsində deyil, həm də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi, mədəniyyət və incəsənət sahəsində tədbirlərin təşkili, habelə beynəlxalq reytinqlərdə yüksək mövqelərin əldə edilməsi istiqamətində də mühüm nəticələr əldə edib. Universitet həm ölkə, həm də dünya miqyasında qabaqcıl layihələrdə iştirak edib, tədris və elmi keyfiyyətin yüksəldilməsi, tələbələrin uğurları, startap layihələri, beynəlxalq mərkəzlər və yeni elmi-tədqiqat infrastrukturunun yaradılması ilə təqdirəlayiq nailiyyətlər əldə edib. Akademik həyatın təcrübəsinin artırılması məqsədilə bir çox yerli və beynəlxalq təlimlər təşkil olunub.*

Elbrus İsayev bildirib ki, ötən il ilk dəfə olaraq 600-700 intervalında bal toplayan tələbələrin sayında ciddi artım müşahidə olunub. Əvvəlki illə müqayisədə bu göstərici 41 nəfərdən 152 nəfərə yüksəlib, onlardan 1 nəfər Prezident təqaüdünə layiq görülüb. 500-dən yuxarı bal toplayaraq qəbul olunan tələbələrin sayı 337 nəfərdən 402 nəfərə çatıb. Dövlət sifarişi ilə qəbul olunan tələbələrin payı isə 46 faizdən 49 faizə yüksəlib.

Yüksək göstəricilərə malik 142 tələbə ilk dəfə olaraq universitet tərəfindən təsis edilən 200 manat, 4 nəfər isə 250 manat məbləğində xüsusi təqaüdlə təmin olunub. Magistratura səviyyəsində 8 yeni ixtisaslaşma üzrə magistrant qəbulu aparılıb. 2024-2025-ci tədris ilində universitet tarixində rekord məzun göstəricisi qeydə alınıb: 1645 nəfər bakalavr, 230 nəfər magistrant və 21 nəfər rezident məzun olub.

2024-2025-ci tədris ilinin II yarısında universitet üzrə 1544 nəfər tələbə 43 müəssisəyə təcrübəyə göndərilib ki, onlardan 443 nəfər pedaqoji, 1101 nəfər isə istehsalat təcrübəsi keçib. 2025-2026-cı tədris ilinin ikinci yarısında keçiriləcək təcrübələr üçün Naxçıvan Muxtar Respublikasının 38 dövlət və özəl müəssisəsi ilə danışıqlar aparılıb və müqavilələr imzalanıb. Həmçinin 2024-2025-ci tədris ilində ilk dəfə olaraq müxtəlif ixtisaslar üzrə 39 nəfər tələbə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində təcrübə keçib.

İlk dəfə olaraq Azərbaycan Dillər Universitetinin təcrübə bazalarında tərcümə ixtisasları, Mərkəzi Gömrük Hospitalında Tibb ixtisası, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Torpaqşünaslıq və Aqrokimya İnstitutunda isə Torpaqşünaslıq və aqrokimya ixtisasında təhsil alan tələbələrin təcrübələri təşkil olunub. Bundan əlavə, Türkiyə Respublikasının Qars Qafqaz Universitetində Baytarlıq təbabəti ixtisası üzrə 3, Trabzon Texniki Universitetində isə Energetika mühəndisliyi ixtisası üzrə 7 tələbənin təcrübəsi keçirilib. İyul ayında tələbə, hakim və rezidentlər də daxil olmaqla, 300 nəfərdən ibarət tələbə və müəllim heyəti Türkiyənin nüfuzlu ali təhsil müəssisələrində – Hacettepe, Qazi, Ankara və Yeditepe universitetlərində yay istehsalat təcrübələrində və ixtisasartırma kurslarında iştirak edib.

Elbrus İsayev bildirib ki, əcnəbi tələbələrin qəbulu üzrə ölkələrin sayı 14-dən 22-yə çatdırılıb. Universitet 1800 nəfər əcnəbi tələbə ilə bu göstərici üzrə ölkə liderliyini qoruyub saxlayıb. 2025-ci ildə “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı çərçivəsində 12 əcnəbi tələbə qəbul edilib. Həmçinin universitetdə tədrisi ingilis dilində aparılan 7 ixtisas üzrə tələbə qəbulu həyata keçirilib və nəticədə, 121 nəfər həmin ixtisaslara qəbul olunub.

2025-ci ildə universitetdə Süni İntellekt Mərkəzi, Dayanıqlı İnkişaf Mərkəzi, Akademik Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi, İnnovasiya Mərkəzi, İnkluziv Təhsil Mərkəzi, Psixoloji Xidmət və Uşaq İnkişaf Mərkəzi, Ömürboyu Təhsil və Futurologiya Mərkəzi, eləcə də Konservatoriyada Elektron Filarmoniya – LOLA sistemi istifadəyə verilib. LOLA sistemi musiqiçilər və təhsil müəssisələri üçün aşağı gecikməli (low latency) onlayn ifa və əməkdaşlıq platformasıdır. Dünya üzrə cəmi 30 universitetin konservatoriyasında bu platforma mövcuddur və onlardan biri NDU-da fəaliyyət göstərir.

2025-ci ildə elmi-tədqiqat sahəsi üzrə əldə olunan nəticələr barədə məlumat verən universitetin rektoru bildirib ki, Tələbə Elmi Cəmiyyəti xətti ilə elmi tədqiqatla məşğul olan tələbələrin sayı əyani təhsil alan tələbələrin 24 faizinə çatıb. Bu çərçivədə tələbələrin onlarla elmi məqaləsi xarici və respublika jurnallarında, eləcə də konfrans materiallarında, bir neçəsi Scopus bazalı, yüksək impakt faktorlu jurnallarda dərc olunub.

Elbrus İsayev qeyd edib ki, 2025-ci il ərzində universitetdə bir sıra startap layihələri də reallaşdırılıb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi və “SUP VC” şirkətinin təşkilatçılığı ilə Azərbaycanın regionlarında keçirilən “İnnostart” layihəsinin “Grand Final” mərhələsində NDU-nun startapçıları uğur qazanıblar. Ümumilikdə, 4 komanda qalib gəlib ki, onlardan ikisi Naxçıvan Dövlət Universitetini təmsil edib. “ImYen” və “Specdeaf” komandalarının hər biri 12500 manat məbləğində investisiya dəyərində mükafat əldə edib. Qalib komandalar Türkiyənin Bilişim Vadisində inkubasiya proqramında iştirak etmək hüququ qazanıblar. “İnnostart” müsabiqəsi çərçivəsində universitetin iki tələbə komandası ayrı-ayrılıqda 12500 manat məbləğində investisiya əldə edib və 2025-ci ildə tələbə komandalarının ölkədaxili və beynəlxalq startap yarışları üzrə qazandığı mükafatların ümumi dəyəri 40000 manat təşkil edib.

2025-ci ilin nəticələrinə görə universitet üzrə 3000-dən çox elmi nəşr qeydə alınıb. Bunların 150-si monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və metodiki vəsaitlərdən ibarət olub. Nəşr olunan 2000-dən çox məqalənin 1300-ü xaricdə dərc edilib və onlardan 300-dən çoxu Web of Science və Scopus bazalı nüfuzlu jurnallarda yer alıb. 600-dən çox tezisin isə 370-i xarici nəşrlərdə çap olunub. Bir akademik heyətə düşən nəşr sayı 5-dən çox olub. Elbrus İsayev bildirib ki, qeyd edilən bütün göstəricilər əvvəlki illərlə müqayisədə rekord nəticələrdir və 2025-ci ildə Scopus və Web of Science bazalarında yer alan nüfuzlu nəşrlərin sayı universitetin əvvəlki bütün dövrlər üzrə cəmi nəşr sayına çatıb.

Elbrus İsayev, həmçinin vurğulayıb ki, ilk dəfə olaraq beynəlxalq kitabxana bazalarına – EBSCO, Clarivate (ProQuest Ebook Central, ProQuest Dissertations & Theses, ProQuest Multimedia) və Taylor & Francis platformalarına giriş imkanı yaradılıb və üzvlük sənədləri təsdiq edilib. Bununla da beynəlxalq elektron bazalardan istifadə imkanı bütün ixtisasları əhatə etməklə, təxminən, 40 milyona yaxın resursa çatdırılıb.

Rektor 2025-ci ildə universitetdə beynəlmiləlləşmə istiqaməti üzrə həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə məlumat verərək bildirib ki, beynəlxalq əməkdaşlığın genişləndirilməsi universitetin əsas strateji prioritetlərindən biri olub. Türkiyənin Çankırı Karatekin Universiteti ilə ikili diplom proqramının icrası davam etdirilib. Eyni zamanda Macarıstanın Con fon Neyman Universiteti ilə Kompüter mühəndisliyi ixtisası üzrə ikili diplom proqramının icrasına başlanılıb. Amerikanın Corc Vaşinqton Universiteti ilə Səhiyyənin idarəedilməsi ixtisası üzrə ikili diplom müqaviləsi imzalanıb. İstanbul Universiteti ilə isə Türk dünyası tarixi və Strateji idarəetmə ixtisaslarını əhatə edən iki magistratura proqramı üzrə ikili diplom protokolu rəsmiləşdirilib.

Prioritet istiqamətlər üzrə dünyanın müxtəlif ölkələrinin nüfuzlu universitetlərini təmsil edən 50 əcnəbi professor universitetdə tədrisə cəlb olunub. Həmçinin Acıbadem Universiteti ilə ikitərəfli akademik əməkdaşlığa dair protokol imzalanıb. 2025-ci il ərzində Macarıstan parlamentinin vitse-spikeri Sandor Lejakın və TÜRKSOY-un baş katibi Sultan Raevin universitetə rəsmi səfərləri təşkil edilib, heyətlə görüşlər keçirilib. NDU TÜRKÜNİB-ə (Türk Universitetlər Birliyi) üzv seçilib və ORHUN mübadilə proqramına qoşulub.

Rektor bildirib ki, NDU-nun IELTS Qeydiyyat və İmtahan Mərkəzində 97 nəfər, SAT Qeydiyyat və İmtahan Mərkəzində isə 68 nəfər imtahan verib. TIES beynəlxalq təqaüd proqramı çərçivəsində Hacettepe Universitetinə 10 tələbənin bir semestrlik mübadiləsi reallaşdırılıb, ümumilikdə isə 50 tələbə müxtəlif mübadilə proqramlarında iştirak edib. Elbrus İsayev, həmçinin vurğulayıb ki, 20 əcnəbi tədqiqatçı universitetdə ortaq elmi tədqiqatların aparılmasına cəlb edilib. 2025-ci ilin aprel ayında isə 6 ölkədən 21 əcnəbi professorun iştirakı ilə beynəlxalq təlim aylığı təşkil olunub. Tədbirlərdə 1500-ə yaxın tələbə, müəllim və



ictimaiyyət nümayəndəsi iştirak edib.

Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universiteti “GreenMetric” beynəlxalq reytinq cədvəlində ölkə üzrə ilk 10-luqda, dünya üzrə isə ilk 700 universitet sırasında yer alıb. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində ölkədə ilk dəfə olaraq 2025-2026-cı tədris ilində Naxçıvan Dövlət Universitetində Tibb ixtisası üzrə SABAH qruplarının ingilis dili bölməsi fəaliyyətə başlayıb və müsabiqə yolu ilə tələbə qəbulu aparılıb.

Elbrus İsayev universitet-sənaye əməkdaşlığının universitetin strateji inkişaf planında əsas prioritet istiqamətlərdən biri olduğunu bildirərək qeyd edib ki, universitet-sənaye işbirliyi çərçivəsində son 5 il ərzində 61 müxtəlif dövlət və özəl müəssisə və təşkilatla əməkdaşlıq memorandumları imzalanıb. 2025-ci il ərzində əlavə olaraq 11 dövlət və özəl müəssisə ilə yeni birgə əməkdaşlıq və sponsorluq müqavilələri imzalanıb. Bunlar Azərbaycan Respublikası Hesablama Palatası, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, AZCON Holdinqə daxil olan Milli Süni İntellekt Mərkəzi, “Kapital Bank” ASC, “Referans” Naxçıvan Tibb Mərkəzi, “Azərişıq” ASC, “Umid Babek Operating Company” Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı və “Invest-AZ İnvestisiya Şirkəti” QSC-dir.

Eyni zamanda “Umid Babek Operating Company” Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə bağlanılmış müqaviləyə əsasən 2026-cı il ərzində Naxçıvan Dövlət Universitetində Kibertəhlükəsizlik laboratoriyasının qurulması və ixtisaslaşmış təlimlərin təşkili üçün 280000 manat məbləğində maliyyə dəstəyi nəzərdə tutulub.

Elbrus İsayev, həmçinin vurğulayıb ki, NDU-nun təşəbbüsü ilə 2024 və 2025-ci illərdə Naxçıvan şəhərində iki böyük karyera sərgisi təşkil edilib. 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən ilk karyera sərgisində 2000-dən çox gənc üçün iş və təcrübə imkanları təqdim olunub. Sərgidə universitetin əməkdaşlıq etdiyi 32 dövlət qurumu və 8 özəl şirkət müxtəlif ixtisaslar üzrə vakansiya və təcrübə proqramları təqdim edib.

II karyera sərgisi isə 2025-ci ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib. Bu karyera sərgisində isə 640 vakant iş yeri təqdim edilib və tədbir çərçivəsində 132 nəfər yerində işlə təmin olunub. Rektor qeyd edib ki, 2025-ci il ərzində Naxçıvan Dövlət Universitetinə yeni işə qəbul olunanların sayı 252 nəfər olub. Bu, son 5 ilin ən böyük rəqəmidir.

Rektor “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində universitet üzrə həyata keçirilən tədbirlər barədə də məlumat verib.

Bildirib ki, Dövlət Proqramına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması istiqamətində mühüm addımlar atılıb. Dövlət Proqramı vəsaiti hesabına məktəbin kitabxana fondunun zənginləşdirilməsi məqsədilə ümumi dəyəri 69970 manat olan 24 adda 550 ədəd elektron və çap Kembric dərslikləri və digər kitablar satın alınaraq məktəbə təhvil verilib.

Elbrus İsayevin sözlərinə görə, ingilisdilli orta məktəbin infrastrukturunun genişləndirilməsi məqsədilə ikinci korpusun tikintisi üçün ayrılmış ərazinin sənədləşdirilməsi yekunlaşdırılıb, reyestr və yerquruluşu sənədləri əldə olunub. Eyni zamanda məktəbin infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə bağlanmış müqavilə əsasında mərkəzi havalandırma, isitmə-soyutma, yanğın təhlükəsizliyi, səs və kamera sistemləri, eləcə də digər zəruri infrastruktur elementləri yaradılıb.

Elbrus İsayev ali təhsil müəssisələrində yeni məzmunlu proqramların tətbiqi, o cümlədən Tibb ixtisası üzrə SABAH qruplarının fəaliyyəti barədə məlumat verib. Bildirib ki, 2024-2025-ci tədris ilinin yaz semestri üzrə keçirilmiş müsabiqənin nəticələrinə əsasən 7 fənn üzrə 7 müəllim SABAH qruplarında tədris aparmaq üçün seçilib. 2025-2026-cı tədris ili üzrə isə müsabiqə yolu ilə 15 nəfər Azərbaycan bölməsi, 5 nəfər ingilis bölməsi olmaqla, ümumilikdə, 20 tələbə SABAH qruplarına qəbul edilib. SABAH qruplarında tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə 5 nəfər əcnəbi professor tədris prosesinə cəlb olunub.

Rektor qeyd edib ki, Dövlət Proqramı vəsaiti hesabına ilkin ehtiyacların təmin edilməsi məqsədilə ümumi dəyəri 34361,56 manat olan dərsliklər, yumşaq inventar və İT avadanlıqları satın alınıb.

Elbrus İsayev 2025-ci ildə universitetin Beynəlxalq Kembric Məktəbi üzrə həyata keçirilən tədbirlər və uğurlar barədə məlumat verərək deyib ki, məktəb Kembric Universitetinin standartlarına uyğun yenidən əsaslı qurularaq istifadəyə verilib və bütün şagirdlər kitab və tabletlə təmin olunub. Bununla yanaşı, Kembric Məktəbində ilk dəfə olaraq Beynəlxalq Olimpiadalara Hazırlıq Mərkəzi yaradılıb və şagirdlər ilk dəfə ingilis dilində “Elm sərgisi” təqdim ediblər. Məktəbin şagirdləri 2025-ci ildə beynəlxalq olimpiadalarda 6 medal qazanıblar.

Elbrus İsayev bildirib ki, gimnaziyanın şagirdləri respublika və beynəlxalq səviyyəli fənn olimpiadalarında uğurla iştirak ediblər. Respublika Fənn Müsabiqəsində 24 şagird, SASMO Beynəlxalq Olimpiadasında 8 şagird, Nəsrəddin Tusi adına II Fizika-Riyaziyyat Olimpiadasında 4, AMO Beynəlxalq Olimpiadasında 21, həmçinin Nəsrəddin Tusi adına III Fizika-Riyaziyyat və İnformatika Olimpiadasının final turunda 3 şagird mükafatçılar sırasında yer alıb. Rektor vurğulayıb ki, bu nəticələr məktəbin beynəlxalq standartlara uyğun fəaliyyətinin və şagirdlərin yüksək hazırlıq səviyyəsinin göstəricisidir.

Sonra media nümayəndələrinin sualları cavablandırılıb.

# Qalib Vətənin əbədiyyət gəncləri



## Prezident İlham ƏLİYEV:

**“Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.”**



Azadlığın, mərdliyin, igidliyin ünvanı Şəhidlər xiyabanında dayanmışam. Nəzər yetirirəm o soyuq baş daşından uzaqlara baxan gözlərə, gənc üzlərə. Kiminin ömrü 19, kiminkinin isə 25-30 yaşında əbədiyyət olub. 90-cı illərin soyuq qış günlərində günlərlə acsusuz qalsa da, səngəri tərk etməyib, sinəsini gülləyə sipər edib torpağı qoruyan oğullar, düşmən tankının qarşısında əliyalın dayanan igidlər. 30 il möhkəmləndirilib “Keçilməz sədd” adlandırılan düşmən mövqeyini cəmi bir saata yaran, sıldırım qayaları aşıb qantər içində, döyüş yoldaşı çiynində Cıdır düzünə qalxan oğullar. Alınmaz qala Şuşanı fəth edib özü torpağa dönən Vətən sevdalısı gənclər. Bəli, gənc ömürlərini Vətənə, bir ovuc torpağa qurban edən azərbaycanlılar. Tabutu bəy taxtı, bayrağı bəy köynəyi bilib irəli gedən igidlər. Ayaq basdıqları torpağı canından, suyu, çörəyi ilə böyüdüyü Vətəni qanından əziz bilən nər igidlər. Düşmənin illərdir, Vətən torpağında qaladığı alovu əlləri ilə sıxıb sinəsində söndürən, bayrağı ürəyinin başında daşıyıb ən uca zirvələrə sancan, sönən çırağımızı yandıran, Xocalının qisasını alan, Laçın quşunu öz doğma dağlarına döndürən, Ağdamın ağ günlərini geri qaytaran, Şuşa dağlarına Qarabağ şikəstəsinin səsini yayan, Vətənimizə qələbə sorağı gətirən oğullar. Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümdən qorxmayıb düşmən üstünə qartal kimi şığıyan oğullar. Kiminin nişan üzüyü möhürlənib başdaşına, kiminin sinəsi üstə ağ qızılgüllər sıralanıb, birinin sinədaşını bəy xonçası bəzəyir. Birinin başı üstə körpə balalar dayanıb soyuq daşı qucaqlayıb ata əvəzinə. Onlar Azərbaycanı qalib edən, alnımızdakı ləkəni öz al qanları ilə silən Vətən sevdalı gənclərdir. Qeyrətli Azərbaycan qadınının, məğrur türk kişisinin yetişdirdiyi oğullar. “Sinəndən vuruldun, kürəyini düşmənə çevirib qaçmadın, onun üstünə yeriyib qalibiyyət qazandın, südüm sənə halal olsun”, – deyən anaların balası. Azərbaycanın ən dərin yarasını öz qanları ilə sağaldıb özləri qəlbimizin sönməz atəşi olan gənc oğullar.

***“Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad etdilər”.*** Dövlət başçısının fəxrlə, qürurla bəhs etdiyi həmin gənc nəsil Vətən sevgisini bütün xoşbəxtliklərdən üstün tutub 2020-ci ilin soyuq bir payız günü yaz günəşi ilə aydınlatdı Azərbaycan səmasını. Bunlar həmin gənclər idi – düşmən mərmisinin səsi ilə böyüyən oğullar. Azərbaycanın ən çətin günlərində dünyaya gəlib, yetişən igidlər. Gözlərini açıb Qarabağı əsir görənlər, ürəyində düşmənə nifrət hissi ilə böyüyənlər. 44 günlük Vətən müharibəsini Azərbaycan tarixinin şanlı səhifələrinə çevirib alnımızı açıq edənlər.

Cəbhədə, döyüş meydanlarında elə bir şücaət, cəsurluq, əzmkarlıq göstərib müharibənin ilk dəqiqələrindən düşmənin canına qorxu salanlar. Torpağı azad edib sönən çırağımızı alovlandıranlar. Ucsuz-bucaqsız çölləri qarış-qarış azad edib cənnətə çevirənlər. Azad Azərbaycanın cəsur gəncləri. Qalib Vətənin əbədiyyət sülh göyərçinləri oldular. Qazandıqları qələbə ilə özlərinə Azərbaycan boyda abidə ucaldan gənclər. Bəli, onlar həmin gənclərdir. Vətənin ən çətin günlərində dünyaya göz açıb, soyuq sinif otaqlarında odun peçinin istisinə qızına bilməmiş, tüstüsünə boğulan uşaqlar. Əlləri qələm tutanda öz doğma əlifbamızla yazı yazmağı öyrənib, ilk dəfə ürəkdən “Vətənim Azərbaycan” yazmaq şərəfinə nail olan körpələr. Xocalının soyuq, qarlı, meşələrində bacı-qardaşını, ata-anasını itirib bu dünyada tək qalan, qarlı aşırımlarda ayaqlarını don vuran, ayaqyalın, başı açıq evindən didərgin düşüb, illərlə soyuq vaqonlarda yaşamaq məcburiyyəti qarşısında qalan balalar. Çadır şəhərciklərində dünyaya göz açan Şuşasız şuşalılar, Laçınsız laçınlılar. Naxçıvanın ən çətin günlərində güllə səsi altında böyüyən, kiçik ürəklərində böyük dərd daşıyıb, düşmən mərmisinin şəhid etdiyi sinif yoldaşlarının məzarı başında qisas andı içənlər. Qarabağı görmədən ürəyində Şuşa sevgisi ilə böyüyüb, qisası qiyamətə saxlamayıb başımızı uca, alnımızı açıq edən oğullar.

**✍ Ramiyə ƏKBƏROVA**



# Tələbə olan ana və oğul

Bu günlərdə Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində fərqli və nümunəvi bir mənzərənin şahidi olduq: ana və oğlu eyni təhsil ocağının tələbəsidir. Fərqli nəsilləri eyni məqsəd ətrafında birləşdirən təhsil öyrənməyin yaşının olmadığını bir daha sübut edir. Zəngin mədəni irsə malik olan xalqımız qadının həm ailədə, həm də cəmiyyətdəki mövqeyinə xüsusi ehtiramla yanaşıb. Məhz bu dəyərlərin real təcəssümünü özündə əks etdirən maraqlı və nümunəvi mənzərəni daha yaxından görmək üçün yolumuzu Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzinə saldıq.

Xatirə Əhmədova Qənnadıçı-şirniyyatçı ixtisası üzrə təhsil alır. Xatirə xanımla söhbətimiz zamanı bildirir ki, bu qərarı verməkdə onun əsas məqsədi həm özünü inkişaf etdirmək, həm də övladına nümunə olmaqdır. Onun fikrincə, insanın yaşı deyil, məqsədi və iradəsi önəmlidir. Deyir ki, öyrənməyin, yeni peşə qazanmağın və həyata yenidən başlamağın heç vaxt gec olmadığını həyat təcrübəsi ilə anlayıb: “Uşaqlıqdan şirniyyat hazırlamağa marağım olub. Ailəm və yaxınlarım hazırladıqlarımı bəyəndikcə bu marağım daha da artıb. Bu həvəsi peşəyə çevirmək arzusu ilə məhz bu ixtisası seçdim. Oğlumla eyni təhsil ocağında oxumaq çox fərqli və gözəl hissdir. Həm qürur duyuram, həm də aramızdakı bağ daha da möhkəmlənir. Bir-birimizi daha yaxşı anlayır, daim dəstəkləyirik. Dərs prosesində yaşımla bağlı ciddi çətinlik hiss etmirəm. Əksinə, həyat təcrübəm mənə üstünlük verir. Peşə təhsili mənə real bacarıqlar qazandırır və gələcək üçün geniş iş imkanları açır. Məqsədim öz sahəmdə peşəkarlaşmaq, qazanc əldə etmək və cəmiyyətə faydalı olmaqdır. Ailə və təhsili paralel aparmaqda məni ən çox motivasiya edən isə övladım və gələcəyə olan ümidlərimdir. Onun üçün daha güclü və daha inamlı bir ana olmaq istəyirəm. Qadınlara, xüsusilə analara demək istəyirəm ki, öz arzularını reallaşdırsınlar, heç vaxt “gecdir” deməsinlər. Gələcək planlarım arasında bu sahədə daha da təkmilləşmək və öz kiçik biznesimi qurmaq var. Öz şirniyyat məhsullarımla tanınmaq və halal zəhmətlə ailəmə töhfə vermək istəyirəm”.



Xatirə xanımın oğlu, Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi Cəbrayıl Əhmədov da söhbətə qoşulur. O, ana ilə eyni təhsil ocağında oxumağın onun üçün həm məsuliyyət, həm də qürur mənbəyi olduğunu bildirir. Cəbrayıl deyir ki, Kombi və kondisioner ustası ixtisasını seçməsinin əsas səbəbi bu sahəyə olan marağı və gələcəkdə daim tələbatlı peşə olmasıdır. Texniki işləri sevdiyini deyən Cəbrayıl Əhmədov əl işi ilə məşğul olmağın ona xüsusi zövq verdiyini vurğulayır. Gənc tələbə qeyd edir ki, anasının tələbə olması ona çox müsbət təsir göstərib: “Anamın dərslərə məsuliyyətlə yanaşması məni də daha ciddi və intizamlı olmağa sövq edir. O mənim üçün əsl nümunədir”. Cəbrayıl Əhmədov dərslərdə və praktiki məşğələlərdə ən çox avadanlıqların quruluşunu öyrənməkdən və nasazlıqların aradan qaldırılmasından zövq aldığını bildirir. Xüsusilə praktiki dərslərin bilik və bacarıqlarının möhkəmlənməsində mühüm rol oynadığını qeyd edir. Gələcək planlarından danışan gənc əvvəlcə təcrübəli bir ustanın yanında işləyərək peşə sirlərini dərindən öyrənmək, daha sonra isə öz işini qurmaq niyyətindədir. Onun əsas məqsədi məsuliyyətli və etibarlı usta kimi tanınmaqdır.




Bu nümunəvi ailə ilə söhbətimizdən sonra şahidi oluruq ki, onları qan bağı deyil, eyni yolu getmək, təhsil almaq və peşə sahibi olmaq da birləşdirir.

✍ **Bülbül RÖVŞƏNQIZI**

## Voleybol üzrə muxtar respublika zona birinciliklərinə start verilib



Yanvarın 26-da yeniyetmə oğlan və qız voleybolçular arasında U-18, U-16 və U-14 yaş kateqoriyaları üzrə Naxçıvan Muxtar Respublika zona birinciliklərinə start verilib.

Yarışların keçirilməsində əsas məqsəd 2026-cı il ərzində Bakıda yeniyetmələr arasında keçiriləcək Azərbaycan çempionatlarının play-off mərhələlərində Naxçıvanı təmsil edəcək komandaların tərkibini müəyyənləşdirmək, muxtar respublikada voleybol idman növünü inkişaf etdirmək, ən güclü idmançıları müəyyən etmək, idmanın kütləviliyinin artırılmasına nail olmaq və peşəkar yerli voleybolçuların sayını artırmaqdan ibarətdir.

Yarışda Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarından, ümumilikdə, 24 komanda iştirak edir. Yarış üç mərhələdən ibarət olacaqdır. Bütün yaş kateqoriyaları üzrə birinci mərhələnin oyunları fevralın 4-də başa çatacaq. İkinci mərhələnin oyunları fevral ayı, üçüncü mərhələnin oyunları isə mart ayı ərzində təşkil olunacaqdır. Zona yarışları ərzində, ümumilikdə, 114 oyun keçiriləcək.

Yarışların birinci günündə U-14 yaş kateqoriyası üzrə oğlan və qız komandaları arasında, ümumilikdə, 9 oyun keçirilib.

*U14 oğlanların yarışında aşağıdakı hesablar qeydə alınıb:*

*Naxçıvan-Şahbuz 2:0*
*Sədərək-Culfa 0:2*
*Ordubad-Şahbuz 2:0*
*Şərur-Kəngərli 2:1*
*Naxçıvan-Ordubad 2:0*

*U14 qızların yarışında isə nəticələr aşağıdakı kimi olub:*

*Sədərək-Culfa 2:0*
*Naxçıvan-Möminə xatun 0:2*
*Culfa-Şərur 2:0*
*Naxçıvan-Sədərək 0:2*




## Məktəblilər arasında stolüstü tennis yarışı keçirilib

Ümumtəhsil məktəblərinin oğlan və qız şagirdləri arasında stolüstü tennis birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata əsasən İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan yarışda 48 məktəbli mükafatlar uğrunda mübarizə aparıb.

Nəticələrə əsasən qızlar arasında Röya Nağıyeva (Şərur), oğlanlarda isə Elnur Məmmədov (Sədərək) yarışın qalibi olublar. “Şərur” komandasından Mələk Xəlilova və İsmayıl Nəzərov (hər ikisi Şərur) ikinci, “Sədərək” komandasının üzvləri Fatimə Məmmədhəsənli ilə Vedad Babayev isə üçüncü yerə sahib çıxıblar.

İlk üç yerin sahiblərinə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplom, medal və hədiyyələri təqdim olunub.



## Vətən müharibəsi iştirakçıları ilə gənclərin görüşü olub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə hazırladığı Tədbirlər Planına uyğun olaraq Vətən müharibəsi iştirakçıları ilə könüllü gənclərin görüşü təşkil olunub. YAP Naxçıvan şəhər təşkilatında keçirilən görüşdə Vətən müharibəsi iştirakçıları – mayor Kamal Məmmədov, mayor İslam Əmrahov və kapitan Yaqub Əliyev iştirak ediblər.

Tədbir zamanı müharibə iştirakçıları çıxış edərək gənclərə vətənpərvərlik, dövlətçiliyə sədaqət və milli birlik anlayışlarının əhəmiyyətindən danışıblar. Çıxışlarda gənclərin ictimai fəallığının artırılmasının, onların sağlam ideoloji düşüncə əsasında formalaşdırılmasının və cəmiyyətin inkişafında fəal mövqe tutmalarının vacibliyi vurğulanıb.



Həmçinin müharibə iştirakçıları döyüş xatirələrini bölüşərək gənclərin suallarını cavablandırıblar.

Bu cür görüşlərin keçirilməsində əsas məqsəd gənclərdə Vətənə sevgi hissinin gücləndirilməsi, vətəndaşlıq məsuliyyətinin formalaşdırılması, milli-mənəvi dəyərlərə bağlılığın artırılması, eləcə də onların cəmiyyət və dövlət qarşısında üzərlərinə düşən vəzifələri daha dərindən dərk etmələrinə zəmin yaratmaqdır.



### Elan

Naxçıvan Şəhər Qaraçuq Bələdiyyəsi Tumbul kəndində ara məhəllələrə çınqıl tökülməsi və texnika ilə hamarlanması üçün müsabiqə elan edir. Müsabiqədə iştirak etmək istəyən fiziki və hüquqi şəxslər fevral ayının 8-dək ünvanımıza müraciət edə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Bulqan kəndi***



### *İtmişdir*

Şərur rayonu, Zeyvə kənd sakini Cəfərov Elman Vahid oğluna məxsus JN-445 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Cəfərov Elçin Vahid oğluna məxsus JN-446 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Stansiya Daşarx kənd sakini Quliyev Arzu Əli oğluna məxsus JN-484$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini İbrahimov Dünyamir İbrahim oğluna məxsus JN-65 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Qəhrəmanov Vurğun Səməd oğluna məxsus JN-465 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Babayev Məhəmməd Rzaqulu oğlunun adına olan JN-122$^{A}$ nömrəli, 10312018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Xanağa kəndində yaşamış Əliyeva Xanım Məmməd qızının adına olan JN-140$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Qurbanov Qənbər Qurban oğlunun adına verilmiş JN-1753$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhər sakini Məmmədov Qəmbəralı Səfəralı oğlunun adına olan JN-339$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Əliyeva Səadət İmran qızının adına olan JN-211$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ QAPISI

**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00

Tiraj: 550. Sifariş № 16

***Nömrəyə məsul:*** **Nail Əsgərov, Turan Məmmədli, Zəhra Vəliyeva**

***Dizayner:*** **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*